EVDƏ QAL,
SAĞLAM QAL!

**Prezidentdən həmrəylik nümunəsi**



Bax 8

**Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademik**



Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 077 (6042) 7 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident hər görüşdə sözünü qətiyyətlə deyir!

*İlham Əliyev: "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır"*



Bax 2

## "Buna görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür"



Ermənistan tərəfindən yenə də ziddiyyətli və biri digərini təkzib edən fikirlər səslənir. Qeyd etdiyimiz kimi, münaqişənin həlli ilə bağlı Azərbaycanın birmənalı, qəti və ardıcıl mövqeyi vardır.

Bax 3

## Türkiyəli ekspert: "Prezident İlham Əliyevin qətiyyətli mövqeyi Azərbaycanın dünyada nüfuzunu daha da artırır"



Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizədə sərgilədiyi qətiyyətli mövqe Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da artırır.

Bax 4

Dövlət başçısının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında...

## Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunan Zirvə görüşü Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılıb



dayanışma mesajı

Bağlantısızlar Hareketi Devlet Başkanları Zirvesinde, yeni tip koronavirüsle mücadelede iş birliği ve dayanışma mesajı verildi. Azerbaycan Cumhurbaşkanı Aliyev, "Kovid-19'u karşılıklı destek, içe kapanmama ve birlikte çabalarla yenebiliriz." dedi.

Ruslan Rehimov | 04.05.2020

Koronavirüs

Arap ülkelerinde Kovid-19 kaynaklı can kaybı ve vaka sayıları artıyor

Ankaragücü Başkanı Mert: Kovid-19 testi pozitif çıkan futbolcumuzun durumu ağır değil

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik"...

Bax 4

## Azərbaycan səfiri italyan jurnalistin Dağlıq Qarabağla bağlı qərəzli yazısına cavab verib



Notizie Geopolitiche

L'AZERBAIGIAN GUIDA LA COOPERAZIONE INTERNAZIONALE CONTRO IL COVID-19

Bax 7

*İtaliyanın "Opinione Pubblica" onlayn qəzetində jurnalist Emanuele Vignanın Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər", Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə təhrif olunmuş və qərəzli məlumatları əks etdirən məqaləsinə cavab olaraq Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin qəzetin redaksiyasına ünvanladığı cavab məktubu dərc olunub.*

## Ermənistan ordusunda rüşvət qalmaqalı: Ciddi yoxlamalar başladı!



Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsindəki bölmələrdə xidmət edən zabitlərin tabeliklərindəki hərbi qulluqçulardan rüşvət tələb etmələri faktı aşkarlanıb.

Bax 3

## DSX: Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib

Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mayın 6-da Xəzər dənizinin mərkəzi istiqamətində DSX-nin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisi tərəfindən aprelin 30-da Qazaxıstan...

Bax 7

## Koronavirus uşaqlarda nadir xəstəlik ortaya çıxardı: 15 azyaşlı...



*ABŞ-ın Nyu-York şəhərində 15 uşaq eyni şikayətlərlə xəstəxanaya yerləşdirilib. Uşaqların yeni tip koronavirusla əlaqəli olduğundan şübhə edilən, nadir rast gəlinən xəstəliyə tutulduğu bildirilir. Kavasakiyə bənzər xüsusiyyətlər daşıyan xəstəlik Avropa və ABŞ başda olmaqla, bir çox ölkədə aşkarlanıb.*

Bax 16

**Paşinyan hökuməti "iki daş arasında" qalıb**



Bax 10

**"Vətəndaşlar birdəfəlik ödəməni banklardan ala biləcəklər"**



Bax 12

**"Beşiktaş"dan ayrıldı, "Liverpul" məşqə buraxmır...**



Bax 16

# Prezident hər görüşdə sözünü qətiyyətlə deyir!

*İlham Əliyev: "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır"*



## Rəsmi xronika

Prezident İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Vilyam Hacıyevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Vilyam Fərhalı oğlu Hacıyev İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilir.

Bəli, məhz Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə, son 17 ildə özünü dəfələrlə təsdiqləyib. Son 17 il ərzində, Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il, görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha bağlılıq daha da artır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

17 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Bax, budur uğurlu siyasət!

### "Əsl siyasət konkret real iş görməkdir"

Bəli, Prezident İlham Əliyevin dediyi bu fikri bugörülən işlərdə, atılan uğurlu ardıcıl addımlarında görmək olur. "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" deyən dövlət başçısının qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərini sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıq yaranır.

Bəli, bu Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının əsl siyasətidir. Elə bu günlərdə Prezident İlham Əliyev Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən bildirib ki...

### "İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir"

Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac olduğunu və vətəndaşlar tərəfindən yüksək qiymətləndirildiyini bildirib: ""Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq".

Dövlət başçısı pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edərək, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni etdiyi halda, icra başçıları, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərirüşvətxorluqla məşğul olduqlarını bildirdi və belələrinə qarşı ciddim mübarizə aparmağı, belə adamları ən ciddi cəza ilə cəzalandırmağı tapşırdı: "Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər".

Budur, ölkə Prezidentinin siyasəti. Prezident bu məsələ ilə bağlı dəfələrlə fikirlərini bildirib, məmurlara açıq mesajlar verib, ciddi xəbərdarlıq edib. Dövlət başçısı böyük bir təəssüf hissi ilə bildirdi ki, "əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər".

Şübhəsiz ki, bu hərəkətlər həm cinayətdir, həm də böyük vicdansızlıqdır, mənəviyyatsızlıqdır. Və bu cür kütləvi hal almış rəzil əməllər cəzasız qala bilməz. Onların hər birinin öz layiqli cəzasını alacağı qeydsiz-şərtsizdir. Prezident də Baş prokurorla videokonfrans formatlı görüşündə bir daha bunun anonsunu verdi. O qeyd etdi ki, bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Prezident İlham Əliyev birmənalı şəkildə qeyd etdi ki, "heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir". Yəni ki, dövlət başçısının bu xəbərdarlığı aşağı, orta və ya yuxarı ranqa mənsub olmağından asılı olmayaraq hər bir məmur üçün "Yol xəritəsi" olmalıdır. Qanunu pozan, vətəndaşın haqqını yeyən heç bir məmura güzəşt olmayacaq. Ortada Prezidentin qətiyyətli iradəsi var. Odur ki, bundan sonra hər bir məmur el diliylə desək, papağını qarşısına qoyub yaxşı-yaxşı düşünməlidir, dövlət başçısının sözlərindən özü üçün ciddi nəticə çıxarmalıdır".

Və hər bir məmur xalqa və dövlətə sədaqətlə, sevgi ilə xidmət etməlidir. Vəzifəsinin böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hər bir məmur xalqa canlabaşla xidmət etməyi və Prezidentin etimadını qazanmağı özü üçün şərəf işi hesab etməlidir. Məmurlar nəhayət ki, anlamalıdır ki, ölkə başçısının haqlı narahatlıqlarına son qoyulması onların hər birinin öz vəzifə borclarını vicdanla, ləyaqətlə yerinə yetirmələrindən asılıdır.

Bəli, əsil siyasət konkret, real iş görməkdir. Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi sözü ilə əməli tam üst-üstə düşür. Və ölkə Parezidenti İlham Əliyev cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər".

Məhz xalqımız öz LİDERİNƏ arxalandığı üçün öz Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisinə doğru inamla irəliləyir.

**RƏFİQƏ KAMALQIZI**

# Hikmət Hacıyev: "Buna görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür"




**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trend-ə müsahibə verib. Müsahibəni təqdim edirik:**

***-Ermənistan xarici işlər nazirliyi tərəfindən münaqişənin mərhələli həlli prosesini təhrif edən və ziddiyyətli açıqlamalar verilir. Bu barədə nə deyərdiniz?***

-ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinin mərhələli həllə əsaslanması hamıya məlumdur. ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçıları və digər səviyyələrdə səsləndirdikləri bəyanatlarda status-kvonun qəbuledilməz olduğu və münaqişənin mərhələli şəkildə həll olunması planı dəfələrlə bəyan olunub. Ermənistan tərəfi hər zaman olduğu kimi ölkə ictimaiyyətini aldatmaq üçün əsassız iddialarla çıxış edir. Münaqişənin paket formulu əsasında həlli müzakirə mövzusu deyildir. Ermənistanın siyasi-hərbi rəhbərliyi destruktiv ritorikası və təxribatçı addımları ilə bu gün ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesini sual altına qoyur.

Münaqişə Azərbaycan Respublikasının Konstitusiyasına, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə və Helsinki Yekun Aktına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və həll olunacaqdır. Azərbaycanın ərazi bütövlüyü heç zaman müzakirə mövzusu olmayıb və ola da bilməz. Ermənistan xarici işlər naziri və ya digər kimsə Azərbaycanın ərazi bütövlüyü və suveren əraziləri barədə mühakimə yürüdə bilməz. Prezident İlham Əliyev tərəfindən qeyd olunduğu kimi münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. "Qarabağ Azərbaycandır və nida işarəsi".

Münaqişənin mərhələli şəkildə həllində birinci və ən vacib olan addım Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və Azərbaycanlı məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz doğma torpaqlarına qayıtması hüququnun təmin olunmasıdır. Ermənistanın işğalçılıq siyasəti davam etdiyi təqdirdə, münaqişənin həllində irəliləyiş əldə etmək qeyri-mümkündür. Bütün işğallar kimi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı da müvəqqəti xarakter daşıyır. Ermənistan işğalçı dövlət olaraq bunu nəhayət başa düşməlidir.

***- Azərbaycan Respublikasının ərazi bütövlüyünü bütün beynəlxalq ictimaiyyət tanıyır və dəstəkləyir. Azərbaycanın işğal olunmuş ərazilərində təşkil olunmuş qeyri-qanuni seçkilərə beynəlxalq ictimaiyyətin münasibəti bunu bir daha nümayiş etdirdi.***

İlk növbədə onu qeyd edim ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü Azərbaycanın Konstitusiyasında təsbit olunmuşdur. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli kontekstində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri də daxil olmaqla, çoxsaylı beynəlxalq hüquqi-siyasi sənədlərdə təsbit və təsdiq olunmuşdur. BMT TŞ-nın qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu bir daha təsdiq olunur, Azərbaycana qarşı gücdən istifadə pislənilir, işğalçı qüvvələrinin tam, dərhal və qeyd-şərtsiz işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması tələb olunur.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində təşkil etdiyi qanunsuz seçkilərlə əlaqədar beynəlxalq ictimaiyyətin nümayiş etdirdiyi mövqe bir daha onu göstərdi ki, işğal, hərbi təcavüz və qanlı etnik təmizləmə nəticəsində yaranmış vəziyyət heç vaxt tanına bilməz. Bu qanunsuz seçkilər ATƏT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Şurası və digər beynəlxalq təsisatlar, həmçinin ayrı-ayrı dövlətlər tərəfindən rədd edildi və Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olundu.

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi 1 mayda verdiyi açıqlamasında Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi barədə Aİ-nın mövqeyini bir daha bəyan etdi.

***- Göründüyü kimi Ermənistan çıxılmaz vəziyyətdə qaldığını görərək, fərqli və ziddiyyətli fikirlərlə çıxış edir. Status və təhlükəsizlik məsələsini şərt kimi qoyur və Aprel müharibəsi də tez-tez Ermənistanın siyasi gündəliyinə gəlir.***

Ermənistan tərəfindən yenə də ziddiyyətli və biri digərini təkzib edən fikirlər səslənir. Qeyd etdiyimiz kimi, münaqişənin həlli ilə bağlı Azərbaycanın birmənalı, qəti və ardıcıl mövqeyi vardır.

Ermənistanın siyasi rəhbərliyi qondarma rejimin danışıqlarda iştirakı və sanki danışıqlar formatının dəyişdirilməsi barədə iddialarla çıxış edirdi. Danışıqların formatı dəyişdirilə bilməz və Azərbaycan ərazilərini işğal etmiş dövlət olaraq Ermənistan siyasi-hüquqi məsuliyyət daşıyan münaqişə tərəfidir. Nəticədə, Ermənistan mövcud format əsasında danışıqlarda iştirakını davam etdirməyə məcbur oldu.

Azərbaycanın işğal olunmuş ərazilərində təşkil olunmuş sonuncu seçki şousu bir daha göstərdi ki, qondarma rejim kriminal qurumdan başqa bir şey deyil və Ermənistandakı klan müharibəsinin tərkib hissəsidir. Qanlı etnik təmizləmə nəticəsində yaradılmış bu qondarma kriminal qurumun öz müqəddəratını təyin etmək ilə əlaqələndirilməsi əsl siyasi riyakarlıqdır.

Bir milyondan artıq Azərbaycanlını qanlı etnik təmizləməyə məruz qoyan Ermənistanın təhlükəsizlikdən danışmağa mənəvi haqqı belə yoxdur. Region üçün ən böyük təhlükə mənbəyi isə məhz Ermənistanın işğalçılıq siyasəti və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğudur.

2016-cı ilin aprelində isə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı nəticəsində Azərbaycan silahlı qüvvələri mülki Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək üçün əkshəmlə tədbirlərini gördülər. Nəticədə Ermənistan ordusu barəsində yaradılmış süni mif darmadağın edildi. Aprel döyüşlərindən sonra Ermənistan ordusunda aparılmış araşdırmalar və yüksək çinli generalların işdən çıxarılması məğlubiyyətin etirafı idi. Azərbaycan Respublikası istənilən zaman BMT Nizamnaməsi və Azərbaycan Respublikasının Konstitusiyasın əsaslanaraq ərazi bütövlüyünü və suverenliyini təmin etmək hüququnu özündə saxlayır. Buna görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

## Malayziya mətbuatı Qoşulmama Hərəkatının Zirvə görüşünü geniş şəkildə işıqlandırıb

Malayziyanın çoxsaylı aparıcı mətbuat orqanları Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının (QH) Təmas Qrupu formatında videokonfrans vasitəsilə keçirilmiş Zirvə görüşünü geniş şəkildə işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, ölkənin rəsmi informasiya agentliyi BERNAMA ilə yanaşı, ölkənin nüfuzlu çoxtirajlı qəzetlərindən olan "New Straits Times", "The Star", "Malay Mail", "Free Malaysia Today" və "The Malaya Post" kimi nəşrlər Zirvə görüşü barədə geniş materiallar dərc edərək, Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutmuş bu mühüm beynəlxalq tədbir barədə Malayziya ictimaiyyətini məlumatlandırıblar. Malayziya KİV-ləri Zirvə görüşünün "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilməsinə xüsusi diqqət çəkiblər. Eyni zamanda, bu tədbirin dünyada Sülh Naminə Çoxtərəflilik və Diplomatiya Beynəlxalq Gününün qeyd olunduğu dövrə təsadüf etməsini əlamətdar hadisə kimi vurğulayıblar.

## Ermənistan ordusunda rüşvət qalmaqalı: Ciddi yoxlamalar başladı!



***Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsindəki bölmələrdə xidmət edən zabitlərin tabeliklərindəki hərbi qulluqçulardan rüşvət tələb etmələri faktı aşkarlanıb.***

AZƏRTAC Ermənistan KİV-lərinə istinadla xəbər verir ki, 10-cu dağ atıcı diviziyasının qərargah rəisinin və komandirin müavininin iştirakı ilə Ağdərə hərbi polis bölməsinin əməkdaşları tərəfindən 5-ci dağ atıcı alayın ehtiyat bölmələrində, həmçinin alayın döyüş mövqelərində yoxlamalara başlanıb. Artıq 50-dən çox gizirdən, müqavilə əsasında xidmət edən hərbi qulluqçudan və əsgərlərdən izahatlar alınıb. Təsdiq edilmiş faktlarla bağlı cinayət işi açılıb və istintaq aparılır. Bir neçə zabitin həbs ediləcəyi gözlənilir.

## "Minnesota Ştat Senatının qətnaməsi kimi təqdim edilən kağız Senatda baxılmayan simvolik sənəddir"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva mayın 5-də ABŞ-ın Minnesota Ştat Senatı tərəfindən Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun "tanınması" qətnaməsinin qəbulu ilə bağlı erməni mətbuatında yayılan məlumatlara münasibət bildirib.


Australian Government
Department of Foreign Affairs and Trade

4 May 2020

Mr Michael Oyta
President
Australian Azerbaijanian Association Inc
azerbaijanylar@hotmail.com

Dear Mr Oyta

Thank you for your email of 9 April 2020 regarding the 'elections' which were recently held in Azerbaijan's occupied territory of Nagorno-Karabakh. I am replying on behalf of the Minister for Foreign Affairs and Minister for Women.

The Australian Government's long-standing policy is that it supports the territorial integrity of Azerbaijan and does not recognise Nagorno-Karabakh as an independent state. We do not recognise the so-called 'elections' which took place on 31 March 2020, nor the constitutional and legal framework within which they were held.

Moving forward, Australia support the efforts of the OSCE (Organisation for Security and Cooperation in Europe) Minsk Group in the peace process and does not seek to intervene. Dialogue between the communities and governments directly involved is the best way to achieve a peaceful resolution of this issue.

I trust this information is of assistance.

Yours sincerely

Jeremy Guthrie
A/g Assistant Secretary
Eastern Europe & Latin America Branch

R G Casey Building John McEwen Cres Barton 0221
T +61 2 6261 1111
DFAT.GOV.AU
@DFAT

AZƏRTAC xəbər verir ki, məsələ ilə bağlı yerli KİV-in sualını cavablandıran Leyla Abdullayeva deyib: "ABŞ-ın Minnesota Ştat Senatının qətnaməsi kimi təqdim edilən və üzərində senator Meri Kiffmeyer, Senatın katibi və Senatın Qaydalar və Administrasiya Komitəsinin sədrinin imzalarının yer aldığı bu kağız Senat ofisinin məlumatında da təqdim edildiyi kimi, senator M.Kiffmeyerin şəxsi bəyanatıdır və simvolik bir jest xarakteri daşıyır. Senatın istənilən üzvü tərəfindən bəyan edilə bilən bu kimi kağızın qəbulu üçün hər hansı səsvermə tələb olunmur, yəni bu kağız Ştat tərəfindən rəsmi qətnamə kimi qəbul olunmur.

Göründüyü kimi, ölkəmizin işğal olunmuş ərazilərindəki qondarma qurumun Minnesota Senatı tərəfindən guya ki, "tanınması" kimi təqdim edilən kağız, əslində, Senatda baxılmayan və səsverməyə çıxarılmadan senatorun imzası ilə verilmiş simvolik sənəddir.

Ümumiyyətlə isə vurğulamaq istərdim ki, hər hansı bir qurumun "dövlət" kimi tanınması, ştat qanunverici orqanının səlahiyyətləri xaricindədir. Amerika Birləşmiş Ştatlarının federal səviyyədə mövqeyinə gəldikdə isə, bu mövqe bəllidir. ABŞ Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir.

# Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademik



***Ömrünü kimya elminin inkişafına və kimyaçıların yeni nəslinin yetişməsinə həsr etmiş akademik Rəfiqə Əliyevanın vəfatından 3 il ötür. Görkəmli alimin xatirəsi və xidmətləri bu gün ehtiramla anılır. Yetirmələri arasında 20-dən çox elmlər namizədi və elmlər doktoru var.***

AZƏRTAC akademik Rəfiqə Əliyevanın anım günündə onun həyat və fəaliyyətinin bəzi məqamlarına nəzər salır.

Respublikanın tanınmış kimyaçı-alimi, Əməkdar elm xadimi, akademik Rəfiqə Əlirza qızı Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb. Əmək fəaliyyətinə Azərbaycan Milli Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) kiçik elmi işçi vəzifəsində başlayıb. 1960-cı ildə ADU-nun analitik kimya kafedrasında analitik kimya ixtisası üzrə aspiranturaya qəbul olub. 1964-cü ildən ömrünün sonuna qədər universitetin analitik kimya kafedrasında işləyib və assistent, baş müəllim, dosent, professor vəzifəsinə qədər yüksəlib. 1970-ci ildə analitik kimya ixtisası üzrə "Germaniumun bəzi üzvi reagentlərlə əmələ gətirdiyi birləşmələrin spektrofotometrik tədqiqi və onun fotometrik metodla təyini" mövzusunda namizədlik, 1999-cu ildə isə "d-, f- elementləri və germaniumun tərkibində N-, S-, O- olan liqandlarla müxtəlifliqandlı komplekslər və onların analitik tətbiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1999-cu ildə analitik kimya ixtisası üzrə professor elmi adını alıb və analitik kimya kafedrasının professoru vəzifəsində çalışıb. 2001-ci ildən ömrünün sonunadək BDU-da onun təşəbbüsü ilə yaradılmış "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasının müdiri işləyib. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademikdir.

Onun rəhbərliyi ilə Moskva Dövlət Universitetinin analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş "Analitik kimyanın əsasları" (iki cilddə) və "Analitik kimyadan məsələ və suallar" kitabları Azərbaycan dilinə tərcümə edilib. Bu kitablar Azərbaycanın ali təhsil müəssisələrinin müəllim, elmi işçi və doktorantların inkişafında mühüm rol oynayıb.

Akademik Rəfiqə Əliyeva "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tabeliyində olan müəssisələrlə elmi-texniki təsərrüfat müqavilələri işlər yerinə yetirilməsinə rəhbərlik edib. Bu işlər nəticəsində Bakı Dövlət Universiteti böyük miqdarda mənfəət götürüb. Təsərrüfat müqavilələrinin nəticələrinə əsasən ətraf mühitin çirklənməsi qiymətləndirilib, zərərli və ağır metalların qatılaşdırılaraq ayrılmasının yeni, ucuz və iqtisadi cəhətdən əlverişli metodları işlənib hazırlanıb.

Görkəmli alim Rəfiqə Əliyeva Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən D 02.011 şifrli dissertasiya müdafiə şurasının sədr müavini, universitetin və kimya fakültəsinin elmi şuralarının üzvü olub. O, tələbəlik illəri də daxil olmaqla ömrünün 70 ilə yaxın bir dövrünü universitetə həsr edib.

Akademik Rəfiqə Əliyeva böyük bir nəslin ən parlaq nümayəndələrindən biri idi. Həmin nəsil Azərbaycan tarixində dövlətçiliyimizin təməlini qoymuş, onu dünyanın müasir dövlətləri sırasına çıxarmışdır. Bu nəslin qurub-yaratmaq, xeyirxahlıq etmək kimi ən gözəl keyfiyyətlərini özündə birləşdirən, daxilən təvazökar, zəngin mənəvi keyfiyyətlərə malik olan Rəfiqə Əliyeva tələbələrin böyük himayədarı idi.

Görkəmli alimin elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən də layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin Sərəncamı ilə o, 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib. O, akademik Y.Məmmədəliyev adına mükafatın laureatıdır. 2000-ci ildə akademik Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 2001-ci ildə Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib, 2003-2004-cü tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi "İlin alimi" fəxri adına, "Ekologiya" və "Ümumi ekologiya" adlı dərs vəsaitləri isə Təhsil Nazirliyinin təsis etdiyi Həsən Əliyev adına mükafata layiq görülüb.

2018-ci ildə "Azərbaycanım" Beynəlxalq Jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

Həyatının mənasını elmə, vətənə xidmət etməkdə görən, kimyaçıların yeni nəslinin yetişməsində əvəzsiz rolu olan akademik Rəfiqə Əliyevanın əziz xatirəsi həmkarlarının və tələbələrinin qəlbində həmişə yaşayacaq.

# Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunan Zirvə görüşü Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılıb




Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilmiş Zirvə görüşü Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, Zirvə görüşü ilə bağlı xəbərlərdə Prezident İlham Əliyevin çıxışına geniş yer verib.




Qeyd olunur ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus, Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat, Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin, BMT-nin Baş katibi Antonio Quterreşin çıxış və videomüraciətlərində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüslərinə dəstək ifadə olunub.

# Türkiyəli ekspert: "Prezident İlham Əliyevin qətiyyətli mövqeyi Azərbaycanın dünyada nüfuzunu daha da artırır"



Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizədə sərgilədiyi qətiyyətli mövqe Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da artırır. Dövlət başçısının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusa qarşı birgə mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşü bir daha göstərdi ki, qardaş ölkə bəşəri dəyərlərin qorunmasına nə qədər böyük önəm verir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli yazıçı, sosial elmlər üzrə ekspert Mətin Yıldırım söyləyib. Qoşulmama Hərəkatının 120 ölkənin təmsilçiliyi ilə BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olduğunu xatırladan ekspert deyib: "Yaxın tariximizdəki beynəlxalq proseslərə səthi nəzər saldıqda görürük ki, Azərbaycan bütün şəraitlərdə yenilik etməyi, beynəlxalq ictimaiyyət üçün fayda verən çağırışlar səsləndirməyi və dünya birliyinə qəbul etdirməyi bacaran bir dövlətdir. Qoşulmama Hərəkatına sədrlik Azərbaycan üçün tarixi bir fürsətdir. Prezident İlham Əliyev bütün dünyanı cənginə alan yeni növ koronavirusla birgə mübarizə məqsədilə Qoşulmama Hərəkatının üzv dövlətlərini bir ayara gətirməyə nail olmaqla bir daha göstərdi ki, Azərbaycanın təşəbbüs və çağırışları hər zaman xoşməramlı olduğu üçün sülhsevər dünya ictimaiyyətindən dəstək qazana bilir".

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzunun artacağına, beynəlxalq aləmdə oynadığı rolun daha dinamik olacağına əminliyini ifadə edən M.Yıldırım deyib ki, liderin beynəlxalq aləmdəki nüfuzu ölkənin mövqelərini birbaşa müəyyən edən amildir. Prezident İlham Əliyevin dövlət və hökumət başçıları, eləcə də beynəlxalq təşkilatların rəhbərləri ilə yüksək səviyyəli münasibətləri mayın 4-də "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşündə bir daha özünü göstərdi. Proseslər deməyə əsas verir ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrli dövründə təşkilatın qəbul etdiyi qərarlar regionumuz və ümumilikdə dünya üçün faydalı nəticələr verəcək.

# Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir

***Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanıblar. Yeni dövrdə dövlətimizin qarşısında duran çətinlikləri həll edə bilmək üçün gənclərin yenidən təşkilatlanması, onlarda milli özünüdərkin, azad, demokratik düşüncənin formalaşması Ümummilli Lider Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində mümkün olub. Bu gün böyük inam hissi ilə qeyd edirik ki, ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Respublikada dövlət gənclər siyasətinin formalaşdırılması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.***



*Seymur Orucov,*
*YAP Gənclər Birliyinin sədri,*
*YAP Siyasi Şurasının üzvü*

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyev gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirərək bildirirdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Bu diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilərək, cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Təbii ki, dövlət gənclər siyasəti dedikdə də gənclərin öz bilik və bacarıqlarını ortaya qoymaları, cəmiyyətdə layiqli yer tutmaları üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur. "Gənclər siyasəti haqqında" Qanunda da bu məqsədlər öz əksini tapıb. Kompleks tədbirlər gənclərin hərtərəfli inkişafını yüksək səviyyədə təmin edir, gələcəyə daha inamla baxmaları üçün stimulverici amil rolunu oynayır.

Tarixə qısa nəzər yetirdikdə bir reallıq öz təsdiqini tapır ki, əgər Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə daha çox gənclərin bir kadr kimi yetişməsi diqqət mərkəzində idisə, Azərbaycan müstəqillik qazandıqdan, daha dəqiq desək, 1993-cü ildə Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra onların dövlət idarəçiliyində irəli çəkilməsi prioritet məsələ oldu. Ulu Öndərimiz tərəfindən Gənclər və İdman Nazirliyinin yaradılması, gənclər siyasəti ilə bağlı mühüm qərarların verilməsi, eləcə də, "Gənclər siyasəti haqqında" qanunun qəbul olunması Ulu Öndər Heydər Əliyevin gəncliyimizə verdiyi dəyərin ifadəsidir.

Eyni zamanda, Azərbaycan dövlətinin gənclər siyasətinin formalaşmasında və gənc nəslin geniş fəaliyyət meydanına çıxarılmasında dahi liderin təşəbbüsü və iştirakı ilə keçirilən gənclərin I Forumunun xüsusi rolu oldu. 1996-cı il fevralın 2-də keçirilən bu forum Ümummilli lider Heydər Əliyevin gəncliklə bağlı strategiyasının ilk təntənəsi kimi dəyərləndirildi. 1997-ci ildə Ümummilli lider Heydər Əliyevin Sərəncamı əsasında I Forumun keçirildiyi tarix-yəni 2 fevral Azərbaycanda Gənclər Günü kimi elan edildi. Sonrakı illərdə də Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərimizin fəaliyyət istiqamətlərinin genişləndirilməsində əhəmiyyətli rol oynadı.

Bu qayğı zamanın çağırışlarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də məqsədyönlü şəkildə davam və inkişaf etdirilir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət Proqramını təsdiq edib. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli-mənəvi dəyərlərin qorunması, hərbi vətənpərvərlik hissinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirilib. Cənab Prezidentin gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Ölkə başçısının ardıcıl səyləri sayəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Respublikamızda beynəlxalq standartlara cavab verən idman komplekslərinin tikintisi bu gün geniş vüsət alıb. Bakıda Dünya və Avropa birinciliklərinin keçirilməsi ölkəmizin idman şöhrətindən, müxtəlif yarışlarda qazanılan çoxsaylı mükafatlar isə gənclərə qayğıdan, onlar üçün yaradılmış gözəl şəraitdən xəbər verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu tam aydınlığı ilə ortaya qoydu. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi də gənclərin təhsilinin artırılmasına xidmət edən addımlardandır. Xüsusilə qeyd etmək istəyirəm ki, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir.

Azərbaycan Prezidentinin 2007-ci ilin fevralın 2-də Prezident Sarayında Gənclər Günü münasibətilə gənclər təşkilatının nümayəndələri ilə görüşməsi, həmin ilin Azərbaycanda "Gənclər ili" elan olunması gəncliyin həyatında ən unudulmaz, yaddaqalan hadisələrdən biridir.

Cənab Prezidentin gənclər qarşısında nitqi təkcə gənclər üçün deyil, bu sahədə çalışan hər bir vəzifəli şəxs üçün fəaliyyət proqramına çevrildi. Dövlətimizin başçısı gənclərlə bağlı siyasətində çoxsaylı yeniliklərin olduğunu açıqlamaqla yanaşı, gəncliyin qarşısında üç mühüm vəzifənin durduğunu qeyd edib: "Peşəkarlığı və intellektual səviyyəni artırmaq, torpağa, yurda bağlılıq və ən nəhayət yüksək, insani keyfiyyətlərin formalaşdırılması".

Gənclərə diqqət və qayğı davamlılığı ilə diqqət çəkir. Yuxarıda qeyd edildiyi kimi, Prezident İlham Əliyevin 7 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi gənclər siyasətini daha da inkişaf etdirməyə, gənc mütəxəssislərin işlə təminatına, sosial-iqtisadi problemlərin həllinin təmin edilməsinə xidmət edir. Sərəncamda da bu reallıq öz əksini tapıb ki, qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə formalaşdığı hazırkı mərhələ Azərbaycanda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin daha fəal iştirakını təmin etmək istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Məhz buna görə də, cəmiyyətin maraqlarının təmin edilməsi və ölkə iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin artırılması üçün gəncliyin innovativ potensialından geniş istifadə olunmasına əlverişli zəmin yaradılmalıdır. Qəbul olunan proqramda bütün həlli vacib məsələlər öz əksini tapıb. Ölkə Prezidentinin 19 dekabr 2011-ci il tarixli Fərmanı əsasında Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması, eyni zamanda, 2 iyul 2013-cü il tarixli Fərmanı ilə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi də əhəmiyyətli addımlardandır. Məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Dövlət başçısı İlham Əliyevin 2011-ci ildə keçirilən Gənclərin VI forumunun iştirakçılarına təbrik məktubunda söylədiyi bu fikirləri xatırlatmaq istərdik: "Gənclərimizin əksəriyyəti böyük qürur hissi ilə deyə bilərlər ki, onlar artıq müstəqillik illərində formalaşmış nəslə mənsubdurlar. Azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə almış bu nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayaraq ildən-ilə potensialının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir".

Bu gün möhtərəm Prezidentin rəhbərliyi ilə təhsil ocaqlarında yüksək standartlara uyğun maddi - texniki bazanın yaradılması, müasir tədris prosesinin tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir. Dövlət vəsaiti hesabına və Heydər Əliyev Fondunun dəstəyi ilə müasir tələblərə cavab verən məktəblər tikilir, tədris müəssisələri yeni avadanlıqlarla, kompüterlərlə təchiz edilir.

Özündə yüksək intellektual potensialı birləşdirən Yeni Azərbaycan Partiyası sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir. Ümumiyyətlə, Ulu öndər və Onun ideyalarına sadiq qalan Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Beləliklə, partiyamız gənclərin inkişafı üçün bütün imkanları yaradıb və gənclərlə sıx işləməyi başlıca hədəflərindən biri hesab edir. Məhz bu səbəbdəndir ki, ölkəmizin intellektual gəncliyi öz siyasi talelərini YAP-la bağlayır. Partiyamız gənclərimizə qayğı göstərməklə yanaşı, gənclərdən gələn təklifləri, layihələri diqqətlə qarşılayır və lazımi dəstəyini verir. Ölkə Prezidentinin bu tapşırığına uyğun olaraq Yeni Azərbaycan Partiyası ötən parlament və bələdiyyə seçkilərində gənclərin təmsilçilik faizinin artırılması istiqamətində mühüm addımlar atıb və nəticə göz qabağındadır. Bu səbəbdəndir ki, Azərbaycan gəncliyi YAP-ın ətrafında mütəşəkkil şəkildə birləşib.

Yeni Azərbaycan Partiyası gənclərin ictimai siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Bu layihələr sırasında 2007-ci ildən başlayaraq keçirilən yay və qış liderlik məktəblərini xüsusi qeyd etmək istərdik. Bu layihələrin əsas məqsədi ümumilikdə bölgə gənclərinin də ictimai-siyasi fəallığını artırmaq, onlar arasında sıx birlik yaratmaqdır.

Eyni zamanda, bir məqamı da qeyd edək ki, paytaxtda "Gənclər Mərkəzi", regionlarda isə " Gənclər evi" fəaliyyət göstərir. Bakı və Bakıətrafı qəsəbələrin, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları çərçivəsində görülən işlər sırasında bu mərkəzlərin və evlərin sayının artırılması əsas məsələ kimi öndədir.

İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər sübut edir ki, müasirlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın simasını bütövlükdə dəyişdirə bilər. Məhz bu keyfiyyətlərə söykənərək belə bir inam ifadə olunur ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla Əliyevanın gördüyü işlər gənclərimiz üçün örnəkdir. Onun Azərbaycanın tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin təbliği istiqamətində gördüyü işlərin miqyası günbəgün genişlənir. Məlum olduğu kimi, Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə, Dünya azərbaycanlılarının III qurultayında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Ümumiyyətlə, gənclərimizin hər sahədə uğurları diqqət çəkəndir. Beynəlxalq yarışlarda Azərbaycanın bayrağını yüksəklərə qaldıran gənclərimiz bir daha təsdiqləyirlər ki, Azərbaycan kimi qüdrətli, zəngin ölkənin vətəndaşı olmaqdan qürur duyurlar, birliyimiz, həmrəyliyimiz sarsılmazdır. Göstərilən etimadı qiymətləndirmək, etimada sədaqətlə xidmət etmək gərəkdir.

**Ardı Səh. 6**

# Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir

**Əvvəli-Səh-5**

Əminliklə deyə bilərik ki, sürətlə inkişaf edən ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakı nəzərə çarpır və burada təbii ki, dövlətin də gənclər üzərində diqqət və qayğısı böyük rol oynayır. Gənclər nəinki bu prosesin iştirakçısı qismində, hətta həyata keçirilən fəaliyyətlərin aparıcı qüvvələri kimi çıxış edirlər. Bu gün gəncliyin innovativ potensialından geniş istifadə olunaraq cəmiyyətin maraqlarının təmin edilməsinə şərait yaradılır. Belə ki, hazırda istənilən sahədə gənclərin fəallığına rast gəlmək olar. Azərbaycanda həyata keçirilən gənclər siyasəti çox uğurlu bir modeldir və bu gün bu model öz bəhrəsini verməkdədir.

Biz bu gün regionda liderlik edən, dünya dövlətləri arasında yüksək nüfuza və etibarlı tərəfdaşlıq mövqeyinə malik olan Azərbaycan Respublikasının gəncləriyik. Biz milli mənsubiyyətimizlə qürur duyur, dövlətimizin və millətimizin daim var olması üçün çalışır, bu yolda öz məsuliyyətimizi dərindən dərk edirik. Bu gün Azərbaycan gəncliyi bütün istiqamətlərdə dövlətin yüksək qayğı və diqqətini hiss etməkdədir. Müstəqilliyin qısa tarixi dövründə yüksək ideyalarla, müqəddəs amallarla, milli-mənəvi dəyərlərlə, müasir texnologiyaya əsaslanan elm və təhsilin son nailiyyətləri ilə silahlanan Azərbaycan gəncliyinin əldə etdiyi, həmçinin, dünya gəncləri ilə mədəni və mənəvi inteqrasiyada qazanılmış uğurları millətimizin və dövlətimizin etibarlı gələcəyindən xəbər verir.

Müstəqillik dövründə gənclərin ictimai-siyasi fəallığı vətəndaş cəmiyyətinin qurulması üçün zəruri şərtlərdən biri kimi yeni demokratik münasibətlərin formalaşmasına da təkan verib. Gənclərin ictimai-siyasi fəallığının yüksəlməsi, gənclərə öz xalqı və dövlətinin gələcəyi üçün məsuliyyət hisslərinin aşılanması, onların mənəvi tərbiyəsinin, siyasi mədəniyyətinin yüksəlməsi ilə sıx bağlı olub. Bu mənada, Ümummilli lider Heydər Əliyevin fikirləri gənclər üçün çıraq olmuşdur: "Gənclər özlərini Azərbaycanın gələcəyi naminə layiqincə hazırlamalıdırlar. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidir. Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən ibarət olmalıdır".

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsinə xidmət edir. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi - hüquqi, iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Bu gün Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi bu strategiyanın verdiyi töhfələr bütün dünya xalqlarını heyrətləndirməkdədir.

Ümummilli Liderin Azərbaycan gəncliyi ilə bağlı olan konsepsiyasına görə hər bir gəncin müstəqil düşüncə tərzi olmalı, özünüdərk, özünütəsdiq yaranmalıdır: "Yalnız milli xarakterli, düşüncəli gənclər müstəqil dövləti inkişaf etdirə və qoruya bilər".

Gənclərin ictimai-siyasi proseslərdə, müstəqil Azərbaycanın inkişafında lazımı səviyyədə iştirak edə bilməsi üçün mənəvi əsas olmalıdır. Bu mənəvi əsas əsrlər boyu xalqımızın əldə etdiyi milli dəyərlər, vətənpərvərlik duyğusu, torpağa bağlılıq, milli tariximizə olan sevgidən ibarətdir.

Qürurverici haldır ki, Azərbaycan gəncləri yüksək vətənpərvərlik ruhunda formalaşırlar. Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı hər an işğaldan azad etməyə qadirdirlər. 2016-cı ilin Aprel döyüşləri bu reallığı bir daha təsdiqlədi.

Bu gün gənclərimiz məhz bu zəmin əsasında ölkəmizin bütün idarəetmə stukturlarında, qurumlarda, vətəndaş cəmiyyəti institutlarında layiqincə təmsil olunur. Azərbaycan gəncliyi bu mövqedə öz məsuliyyətini dərindək dərk edir və üzərinə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışır. Çünki Azərbaycanın gələcək uğurları bu gün gəncliyin sahibləndiyi bilik, bacarıq və mənəvi tərbiyədən asılıdır.

Düşünürəm ki, dövlətin biz gənclərə göstərdiyi bu qayğı və diqqət bizim məsuliyyətimizi daha da artırır. İnanıram ki, Azərbaycan gəncliyi ona olan bu etimadı bu gün olduğu kimi, gələcəkdə də doğruldacaq, müstəqil dövlətimziin inkişafı prosesinə bundan sonra da öz töhfələrini verəcəklər.

## Hulusi Kılıç: "Azərbaycanın sədrliyi Qoşulmama Hərəkatının fəaliyyətinə yeni nəfəs gətirib"

Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşündən sonra mayın 4-də Qoşulmama Hərəkatının "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun göstəricisidir. Hər iki Zirvə görüşü Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq proseslərə geniş təsir imkanlarını nümayiş etdirdi. Xüsusilə qeyd etmək istəyirəm ki, Türk Şurasının fövqəladə Zirvəsi bu qurumun əhəmiyyətini ortaya çıxardı, onun dostluq və qardaşlıq təməlləri əsasında qurulduğunu bir daha nümayiş etdirdi. Qeyd etmək lazımdır ki, bu, dünya miqyasında dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü. İclasda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov və Macarıstanın Baş Naziri Viktor Orban iştirak ediblər. Qoşulmama Hərəkatının Zirvəsi isə göstərdi ki, Azərbaycanın dövlət başçısı istənilən şəraitdə və mühitdə qlobal problemlərdən narahatdır və onların həllinə əhəmiyyətli töhfələr verməyə müvəffəq ola bilir. Bu fikirləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.



O qeyd edib ki, COVID-19 pandemiyası dünya həqiqətlərini çılpaqlığı ilə ortaya qoydu. Bütün dünya gördü ki, heç də hər şey göründüyü kimi deyil. İnsan haqqlarından dünyaya dərs deyən bir sıra ölkə infeksiyaya yoluxan xəstələrin adi haqlarını belə qorumadılar. Humanizmdən bəhs edənlər bir-birilərinə yardım etmədilər. Bir sıra beynəlxalq birlik və təşkilatlar təmsil olunduqları qurumların haqlarını tanımadılar və s. Hesab edirəm ki, bu prosesdə ən düzgün yolu türkdilli ölkələr tutdular. Burada Türk Şurasının, əlbəttə ki, quruma sədrlik edən Azərbaycanın tarixi missiyası var.

"Türk Şurasının Zirvə görüşü, onun gündəliyi, tərəflərin sərgilədiyi vahid mövqe, dünya ictimaiyyətinə çağırışlar beynəlxalq aləmin diqqət mərkəzinə çevrildi. Sözügedən toplantının qərarlarının icrası göstərdi ki, türkdilli xalqlar tarixin bütün dövrlərində olduğu kimi müasir həyatda da humanizm prinsiplərini milli ənənə kimi yaşadırlar. Əminliklə deyə bilərəm ki, Prezident İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilən fövqəladə Zirvə görüşünün qərarlar dünya ictimaiyyətinin birgə fəaliyyət üçün bir növ hərəkətə gətirdi. Fövqəladə Zirvənin qərarlarının icrası çərçivəsində Azərbaycanın sədrliyi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın, eləcə də müşahidəçi dövlət Macarıstanın nəqliyyat sahəsi üzrə məsul şəxsləri arasında, eləcə də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevin və quruma üzv ölkələrin ABŞ-dakı səfirlərinin iştirakı ilə videokonfrans keçirildi. Birmənalı olaraq bütün bu videokonfrnaslar regionda maraqları olan digər tərəfləri də əməkdaşlığa sövq etməyə bilməzdi.

Yuxarıda qeyd etdiyimiz kimi, hazırda bütün dünya böhran içərisindədir. Hətta bir gün sonra məlum pandemiya aradan qalxsa belə, mövcud əlaqələrin bərpasını, iqtisadi böhrandan çıxış, tez-tez rast gəldiyimiz dünyanın yeni nizamı zaman aparacaq. Türk Şurasının məlum Zirvə görüşünün faydalı nəticələri istər-istəməz beynəlxalq ictimaiyyət üçün cəlbedici xarakter daşıdı. Açıq şəkildə göründü ki, bu Zirvənin qərarları bütün dünya üçün əhəmiyyətlidir. Ona görə də, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Qoşulmam Hərəkatının Zirvə görüşündə fəallıq yüksək səviyyədə oldu. Qeyd etməliyəm ki, tarixi zərurətdən yaranan hər iki çağırış Azərbaycan Prezidentinin qətiyyətli, iradəli, anında və zamanında praqmatik reaksiya vermək qabiliyyətini bir daha ortaya qoydu. Prezident İlham Əliyevin BMT-nin Baş Assambleyasının xüsusi toplantısının çağırılması ilə bağlı təşəbbüsü və tərəflərin dəstəyini qazanması xüsusi qeyd olunmaldır. Nəzərə almaq lazımdır ki, Qoşulmama Hərəkatı 120 ölkəni sıralarında birləşdirir. Azərbaycanın 2019-cu ildən Qoşulmama Hərəkatına sədrlik etməsi təşkilatın fəaliyyətinə yeni nəfəs gətirib. Bütün bunlar Prezident İlham Əliyevin xarici siyasətinin uğurlu nəticəsi, onun lider kimi tükənməz gücünün göstəricilərdir", - deyə Hulusi Kılıç vurğulayıb.



## Cəbhəboyu zonada tikintisi yekunlaşmaqda olan hərbi hissəyə baxış keçirilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun şəxsi heyətinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatlar çərçivəsində cəbhəboyu zonada tikintisi yekunlaşmaqda olan hərbi hissədə olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissədə şəxsi heyətin yaşayışı və xidməti-döyüş tapşırıqlarının icrasını təmin etmək üçün lazımi şəraitin yaradılacağı məruzə olunub. Yeni inşa edilən hərbi hissədə aparılan tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Azərbaycan səfiri italyan jurnalistin Dağlıq Qarabağla bağlı qərəzli yazısına cavab verib

***İtaliyanın "Opinione Pubblica" onlayn qəzetində jurnalist Emanuele Vignanın Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər", Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə təhrif olunmuş və qərəzli məlumatları əks etdirən məqaləsinə cavab olaraq Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin qəzetin redaksiyasına ünvanladığı cavab məktubu dərc olunub.***


SIGN IN / JOIN HOME REDAZIONE CONTATTI COLLABORA GALLERY PUBBLICITÀ SU NG SOSTIENICI! UTILITÀ APPUNTAMENTI

Notizie Geopolitiche
Quotidiano indipendente on line di geopolitica e politica estera - dal 2011

PRIMO PIANO PANORAMA FOCUS L'INTERVISTA L'ANALISI ECONOMIA IL PUNTO

Home › Panorama › L'Azerbaigian guida la cooperazione internazionale contro il COVID-19

PANORAMA QUI ASIA CENTRALE

L'AZERBAIGIAN GUIDA LA COOPERAZIONE INTERNAZIONALE CONTRO IL COVID-19

5 Maggio 2020

di Barbara Cassani –

"Possiamo essere in grado di superare il COVID-19 solo con il supporto reciproco, l'autocontrollo e sforzi congiunti". Queste le parole del presidente dell'Azerbaigian, Ilham Aliyev, durante il vertice del Movimento dei paesi non allineati tenutosi sotto forma di gruppo di contatto in videoconferenza.
Organizzato su iniziativa del presidente Ilham Aliyev nell'ambito della presidenza di turno triennale esercitata dall'Azerbaigian e sotto il motto "Uniti contro COVID-19", il vertice si è concentrato sulla lotta contro la pandemia di coronavirus. Il presidente Ilham Aliyev ha tenuto un discorso di apertura al vertice, in cui ha evidenziato l'impatto negativo della pandemia globale COVID-19 su tutti i paesi. Il presidente ha anche ricordato il vertice dello scorso 10 aprile del Consiglio di cooperazione degli Stati di lingua turca, presieduto attualmente dall'Azerbaigian, e che ha rappresentato il primo summit a livello di capi di Stato dedicato all'emergenza in atto.
Aliyev ha fornito informazioni sulle misure preventive adottate dall'Azerbaigian per prevenire la diffusione del coronavirus, dettate dalla priorità di salvaguardare la salute umana e garantirne la protezione sociale. "Come risultato di tutte le misure adottate nel paese, è stato possibile prevenire le infezioni di massa. Nelle ultime tre settimane, c'è stato un trend positivo tra il numero di persone infette e quelle che stanno guarendo in Azerbaigian". Il presidente ha anche sottolineato il lavoro svolto per garantire la stabilità economica nel paese durante la pandemia, risolvere i problemi di occupazione e mantenere la stabilità

Mi piace 5035 Condividi

PRIMO PIANO

CORONAVIRUS: PECHINO RESPINGE LE ACCUSE DI POMPEO, 'BLUFFA, SE HA PROVE...
5 Maggio 2020

USA. LE NUBI DELLA PANDEMIA SULL'ECONOMIA: TRUMP IN DIFFICOLTÀ PER L'ELEZIONE...
2 Maggio 2020

I SAUDITI ENTRANO IN ENI. MARSIGLIA, 'ABBIAMO VINTO UNA LOTTERIA'
30 Aprile 2020

ASRIE Analytica
A project of Notizie Geopolitiche

PANORAMA

KOSOVO. EFFETTO DAZI E RAPPORTI CON LA SERBIA
5 Maggio 2020

Səfir məktubunda müəllifin tarixi faktları və regiondakı mövcud vəziyyətin kökündə dayanan həqiqətləri görməzdən gəldiyini qeyd edərək Qarabağın tarixi Azərbaycan torpağı olduğunu, ermənilərin Qarabağa sonradan köçürüldüyünü sübut edən tarixi faktlar, eləcə də münaqişənin kökləri ilə bağlı məlumat verib.

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən Ermənistanın Azərbaycana qarşı Dağlıq Qarabağın ilhaqı ilə bağlı ərazi iddiaları irəli sürməsi ilə eyni zamanda 250 min azərbaycanlını Ermənistandakı tarixi torpaqlarından deportasiya etməsi, bunun ardınca Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzə başlaması və ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini - Dağlıq Qarabağ regionu və ətraf yeddi rayonu işğal etməsi, işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizlənmə həyata keçirdiyi və 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın düşməsi, həmin ərazidəki Azərbaycanın maddi-tarixi irsinin dağıdılması ilə nəticələndiyini qeyd edib. Ermənistanın beynəlxalq humanitar hüququ ciddi şəkildə pozduğunu və çoxsaylı müharibə cinayətləri, o cümlədən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 613 azərbaycanlı mülki şəxsin qətlə yetirildiyi Xocalı soyqırımını - münaqişənin ən faciəvi hadisəsini törətdiyini vurğulayıb. Çoxsaylı beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını və qaçqın və məcburi köçkünlərin öz torpaqlarına geri qaytarılmasını tələb edən dörd qətnaməsinə Ermənistan tərəfindən məhəl qoyulmadığını qeyd edib.

Diplomat müəllif tərəfindən məqalədə "Dağlıq Qarabağ respublikası" və ya "Artsax respublikası" kimi təqdim olunan qondarma rejimin işğal olunmuş ərazilərimizdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrini ört-basdır etmək üçün qanunsuz olaraq yaratdığını, irqi ayrı-seçkiliyin nəticəsindən başqa bir şey olmayan bu rejimin dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan tərəfindən belə tanınmadığını bildirib. Azərbaycanın işğal olunmuş ərazilərində qondarma qanunsuz "seçkilər"in keçirilməsinin isə Ermənistanın status-kvonu saxlamaq və işğal olunmuş ərazilərdə vəziyyəti baş vermiş fakt (fait accompli) kimi qəbul etdirmək üçün növbəti cəhdi olduğunu deyib. Diplomat işğal olunmuş ərazilərdə digər hallarda olduğu kimi ,sonuncu qondarma "seçkilər"i də beynəlxalq ictimaiyyət, o cümlədən İtaliya da daxil olmaqla çoxsaylı dövlətlər və beynəlxalq qurumlar tərəfindən qanunsuz sayıldığını, qınandığını və rədd edildiyini bildirib.

Müəllifin öz məqaləsində bütün bu faktları görməzdən gəlməsinin onun işğal olunmuş ərazilərimizdə Ermənistanın status-kvonu saxlamaq, vəziyyəti baş vermiş fakt (fait accompli) kimi təqdim etmək cəhdlərini və hərbi təcavüzün nəticələrini dəstəkləmək anlamına gəldiyini deyən diplomat Dağlıq Qarabağın Azərbaycan bölgəsində seçkilərin yalnız azərbaycanlı məcburi köçkünlərin öz yurd-yuvalarına geri qayıtmasından və Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən çıxarılmasından sonra bölgənin bütün əhalisinin iştirakı ilə Azərbaycan Respublikasının konstitusiyası çərçivəsində mümkün olacağını bildirib.

Məktubunda öz müqəddəratını təyinetmə hüququna da toxunan diplomat bu hüququn bir xalqa aid olduğunu və erməni xalqının artıq Ermənistan dövlətini yaratmaqla bu hüquqdan istifadə etdiyini vurğulayıb, münaqişədən əvvəl Dağlıq Qarabağda azərbaycanlı və erməni icmalarının yaşadığını və münaqişə vaxtı bölgədən azərbaycanlıların Ermənistan ordusu tərəfindən tamamilə qovulduğunu bildirib. Diplomat əlavə edib ki, yalnız azərbaycanlıların bu bölgəyə qaytarılmasından sonra Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bu bölgə üçün muxtariyyət məsələsi nəzərdən keçirilə bilər ki, bu da iki icmanın sülh və ləyaqətlə birgə yaşamaq modelini təmin edə bilər. Münaqişənin belə bir formada nizamlanmasının beynəlxalq hüquqa, beynəlxalq təşkilatların çoxsaylı sənədlərinə, BMT Nizamnaməsinə və Helsinki Yekun Aktına uyğun yeganə məqbul həll yolu olduğunu vurğulayan diplomat Ermənistan ordusunun işğal edilmiş ərazilərimizdə mövcudluğunun nizamlanma üçün əsas manеə olduğunu qeyd edib və ilk növbədə, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyini bildirib.

Diplomat işğal olunmuş ərazilərimizdən qovulmuş azərbaycanlıların 30 ildən çoxdur ki, nəinki öz doğma torpaqlarında baş verən tədbirlərdə iştirak etmək hüququndan, hətta öz evlərinə qayıtmaq və ailə üzvlərinin məzarlarını ziyarət etmək imkanından belə məhrum olduğunu bildirib və məsələnin həssaslığını nəzərə alaraq, münaqişənin qurbanlarına və onların keçirdiyi hisslərə hörmət əlaməti olaraq da Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı yazılarda qərəzsizlik və obyektivlik nümayiş etdirilməsinə çağırıb.

Məqaləyə keçid aşağıdakı link vasitəsilə mümkündür: http://www.opinione-pubblica.com/nagorno-karabakh-la-replica-dellambasciatore-ahmadzada/.

# "Pandemiyadan sonra dünyada vəziyyət gərginləşə bilər"



***"Pandemiyadan daha tez çıxan ölkələr, söhbət iri oyunçulardan gedir, onlar daha çox üstünlük qazanacaqlar. Hələ ki, dövlətlər bunu etməyə çalışırlar, xüsusilə də Çin". Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert İlqar Vəlizadə postpandemiya dövründə hansı ölkələrin daha çox üstünlük qazanacağından danışarkən deyib.***

Onun sözlərinə görə, bütün dünyada iqtisadi münasibətlər dəyişiləcək, çünki, karantin tədbirləri uzunmüddətli xarakter daşıyır və baxmayaraq ki, ölkələr karantin rejiminin yumşaldılmasına doğru gedirlər, lakin, onlar tamamilə karantin rejimindən çıxmaq niyyətində deyillər: "Bəzi ölkələrin rəsmilərinin fikirlərinə əsasən, pandemiya ilə mübarizə tədbirləri çox güman ki, bir il və ya bir il yarım davam edəcək. Virusa qarşı vaksin tapılmadığı müddətdə bu karantin tədbirləri mövcud olaraq qalacaq. Eyni zamanda, infeksiyanın ikinci dalğasının olması da gözlənilir. Bu haqda müxtəlif versiyalar önə sürülür. Onlardan birinə görə, bunun ilin sonlarından olmasından xəbər verir. Bəziləri karantin yumşaltmalarına getməklə bunun ola biləcəyini irəli sürür. Bütün hallarda nə qədər ki, bu təhlükə sovuşmayıb, bütün dünya karantin tədbirlərini həyata keçirməyə davam edəcək. İlk növbədə sərhədlər qapalı saxlanılacaq, işlər distant şəkildə idarə olunacaq və sərhədlər bağlı olduğu müddətdə ticarət mübadiləsi də azalacaq. Hazırda, ölkələr daha çox öz resurslarından istifadə edirlər, kimin resurs bazası zəngindirsə, onlar daha çox üstünlük əldə etmiş olurlar. Kimin resurs bazası zəifdirsə, onların vəziyyəti təbii ki, elə də ürəkaçan deyil. Bu ölkələrə yardımlar lazımdır. Artıq bir çox ölkələr Beynəlxalq Valyuta Fonduna üz tutaraq kredit və maliyyə yardım istəyirlər. Bu yardımların ümumi həcmi trilyon dollarlarla ölçülür. Həmin təsisatın isə hər kəsə kömək etməyə imkanları yoxdur".

Ekspertin fikrincə, mövcud dövr sonrasında rəqabət çoxalacaq və bu xüsusilə də aparıcı dövlətlərin timsalında özünü büruzə verəcək: "Burada bir məsələ var ki, pandemiyadan daha tez çıxan ölkələr, söhbət iri oyunçulardan gedir, onlar daha çox üstünlük qazanacaqlar. Hələ ki, dövlətlər bunu etməyə çalışırlar, xüsusilə də Çin. Çinin iqtisadiyyatı pandemiyanın təsirlərindən tədricən xilas olur. Lakin, Avropa ölkələri və ABŞ-ın iqtisadiyyatı ciddi karantin qaydaları ilə məhdudlaşdırılmışdır. Bu Çinə müəyyən üstünlüklər verir. Bu faktın özü də Çin-ABŞ və Çin-Avropa iqtisadi münasibətlərini gərginləşdirə bilər. Çin iqtisadiyyatına görə, dünyanın ikinci yerdə durur. Həm də post-pandemiya dövründə Çin çox güman ki, çalışacaq ki, birinci yerə qalxsın. ABŞ isə buna imkan verməyə çalışacaq. Bu isə münasibətlərin gərginləşməsinə, dünya ticarət sistemində, beynəlxalq iqtisadi sistemində növbəti aylardan gərginliyin yaşanmasına gətirib çıxara bilər".

***Nigar Məmmədova***

# Rusiyada daha bir nazir koronavirusa yoluxdu

Rusiyanın mədəniyyət naziri Olqa Lyubimovaya koronavirus diaqnozu qoyulub. SİA-ya "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Nazirliyin mətbuat katibi Anna Usaçova deyib. "Olqa Lyubimova distant işləyir. COVID-19 testinin sonucları pozitiv çıxıb. Nazir hazırda evdədir, videokonfrans rejimində işgüzar iclas keçirir, görüş və danışıqlarda onlayn formatda iştirak edir", - A.Usaçova bildirib.

Onun sözlərinə görə, nazir xəstəliyi yüngül keçirir, ona görə də xəstəxanaya yerləşdirilməsinə ehtiyac yoxdur.

Qeyd edək ki, daha öncə Rusiyanın baş naziri Mixail Mişustin və inşaat naziri Vladimir Yakuşevə koronavirus diaqnozu qoyulub. Xatırladaq ki, Rusiyada qeydə alınmış yoluxma hallarının sayı 166 000-ə çatır. Onlardan 21 327 nəfər sağalsa da, ölənlərin sayı 1 537-dir.

# DSX: Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib

Qazaxıstan sərhədçiləri tərəfindən öldürülən Azərbaycan vətəndaşının meyiti ailəsinə təhvil verilib. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mayın 6-da Xəzər dənizinin mərkəzi istiqamətində DSX-nin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisi tərəfindən aprelin 30-da Qazaxıstan Respublikasının Sərhəd Xidmətinin Sahil Mühafizəsi əməkdaşlarının Xəzər dənizində 4 nəfər Azərbaycan Respublikası vətəndaşını saxlamaları zamanı silahın tətbiqi nəticəsində həyatını itirmiş Neftçala rayon sakini, 1969-cu il təvəllüdlü İbrahimov Qəhrəman Kamil oğlunun cənazəsi qəbul edilib. Cənazə həmin gün Q.İbrahimovun ailəsinə təhvil verilib.

# Prezidentdən həmrəylik nümunəsi

## *Pandemiya ilə mübarizədə Azərbaycan modeli var və dünya üçün bir nümuinədir*

***Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü bu qlobal pandemiyaya qarşı mübarizədə bütün dünya üçün həmrəylik nümunəsidir. Nüfuzlu beynəlxalq təşkilatların, qurumların rəhbərlərinin, eləcə də qırxdan çox üzv ölkənin dövlət və hökumət başçılarının ölkə başçımızın təşəbbüsünə dəstək verməsi və Zirvə görüşünə qatılması isə həm Azərbaycanın, həm də Azərbaycan Prezidentinin beynəlxalq aləmdə nüfuzunun yüksək olduğunun real göstəricisidir.***




### Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə ən fəal rol oynayır

Heç şübhəsiz ki, koronavirus adlanan bu qlobal bəlanın yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılması bütün dünya ölkələrinin, eləcə də Qoşulmama Hərəkatına üzv olan dövlətlərin də qarşısında duran ən mühüm vəzifələrdən biridir. Onsuz da istər-istəməz hər bir ölkə öz daxilində bu xəstəliklə mübarizə aparır və belə bir şəraitdə COVİD-19 kimi bir bəla ilə qlobal əməkdaşlığın nə qədər əhəmiyyətli olduğunu hər kəs, hər bir ölkə və onun rəhbəri çox yaxşı başa düşür. Amma heç bir ölkə və onun rəhbəri məhz Azərbaycan Respublikası və Azərbaycan Prezidenti kimi təşəbbüskarlıq edib bu bəlanın aradan qaldırılması istiqamətdə qlobal əməkdaşlığa səy göstərməyib. İndi bütün dünya ictimaiyyəti bilir və etiraf etmək məcburiyyətindədir ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə ən fəal rol oynayır və Zirvə görüşünün sonunda Bəyannamənin qəbul olunması isə bütün dövlətlərin səylərinin birləşdirilməsinə növbəti bir çağırışdır. Ona görə növbəti bir çağırış deyilir ki, bu təşəbbüs Azərbaycan tərəfindən ilk təşəbbüs də deyil və bundan əvvəl Türk Şurasının videokonfrans formatında Zirvə görüşünün də təşəbbüskarı məhz Azırbaycan Respublikası, Azərbaycan Prezidenti olub. Bu baxımdan cəsarətlə deyə bilərik ki, Azərbaycan öz təşəbbüsləri ilə qlobal əməkdaşlıq üçün mühüm platforma və körpü yaradır.

### Azərbaycan Prezidenti istənilən təsisata sədrlik etməyə layiqdir və bu sədrliyi də uğurla icra etmək əzmindədir

Diqqət çəkən məqamlardan biri də məhz Qoşulmama Hərəkatının BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olması və bu quruma daxil olduqdan sonra ən qısa zamanda ölkəmizin həmin quruma sədrlik etməsidir. Bu, əslində ölkəmizin, ölkə başçımızın nüfuzunun göstəricisidir ki, 120 ölkənin təmsil olunduğu bir beynəlxalq qurum sədrlik etmək üşün Azərbaycanı Respublikasını və Azərbaycan Prezidentini layiqli bilib. İstər Türk Şurası, istərsə də Qoşulmama Hərəkatına daxil olan ölkələrin Zirvə görüşünün videofarmatda təşəbbüskarı olması və qlobal problemin həlli istiqamətində göstərdiyi səylər təsdiq edir ki, Azərbaycan, Azərbaycan Prezidenti sözün əsl mənasında bu quruma, eləcə də istənilən təsisata sədrlik etməyə layiqdir və bu sədrliyi də uğurla icra etmək əzmindədir.

Dünya ictimaiyyəti şahidi oldu ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı tarixində ilkə imza atıldı. Şahidi oldu ki, Azərbaycan qlobal həmrəyliyə, dövlətlərarası təmasların möhkəmləndirilməsinə pandemiya şəraitində belə töhfələrini verməkdə davam edir. Görünür ki, Azərbaycana, Azərbaycan Prezidentinə olan etimad da əbəs yerə deyil və ölkəmizin qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin arxasında ölkə rəhbərinin uğurlu, məqsədyönlü, düşünülmüş siyasəti, dünya çapında həmrəylik istiqamətində səyləri, nailiyyətləri və beynəlxalq aləmdə nüfuzu durur.

### Azərbaycan Prezidenti öz prinsiplərinə sadiqdir və Qoşulmama Hərəkatının Zirvə görüşü bunun bariz nümunəsidir

Azərbaycan Respublikası Prezidentinin öz prinsiplərinə, vədlərinə sadiq qaldığı da hər zaman diqqət mərkəzində olub və son Zirvə görüşü də bunu təsdiq edir. Beləki, xatırlayırıqsa, ötən il hərəkata sədrliyi öz üzərinə götürərkən Cənab Prezident Azərbaycanın beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağını, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağını bəyan etmişdi. İndi Qoşulmama Hərəkatına üzv ölkələr özləri də bir daha şahidi oldular ki, həqiqətən də Azərbaycan Prezidenti öz prinsiplərinə sadiqdir və onun da şahidi oldular ki, dünyanın ciddi sınaqlar qarşısında olduğu bir vaxtda, qlobal əməkdaşlığa ehtiyac duyulduğu bu həssas məqamda Cənab Prezident İlham Əliyev Zirvə toplantısının təşəbbüskarı oldu və bunu reallaşdırdı. Yəni, ölkə başçımız növbəti dəfə öz vədinə sadiqliyini nümayiş etdirdi.

Ölkəmizdəki prezident-xalq, xalq-prezident birliyi dünya ictimaiyyətinin diqqətindən yayınan deyil

Ən təqdirəlayiq məqam ondan ibarətdir ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında və operativ şəkildə həyata keçirilən qabaqlayıcı tədbirlər nümunə kimi təqdir olunur. İstər Türk Şurası ölkələri, istərsə də Qoşulmama Hərəkatına daxil olan ölkələr pandemiya ilə mübarizədə Azərbaycan təcrübəsindən çox şeylər öyrənirlər. Təbii ki, hər bir ölkə daxilində sözügedən virusla mübarizə tədbirləri aparılır, amma heç birində Azərbaycandakı qədər uğurlu nəticələr əldə edilmir ki, bunu da statistik göstəricilər təsdiqləyir. Təkcə Qoşulmama Hərəkatına üzv ölkələr deyil, həm də bütün dünya ölkələri və bu ölkələrin rəhbərləri, ictimaiyyəti görür ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi, təşəbbüsü və tövsiyələri ilə Azərbaycanın daxilində həmrəylik necə müsbət nəticələr verir. İstər dövlətin vətəndaşlara, ehtiyaclı təbəqəyə yardımları, istərsə də əhalinin bir-birinə dəstək verməsi, köməklik göstərməsi, bir sözlə həmrəy, bir olması hansı müsbət nəticələrə səbəb olduğu günün reallığıdır və hər kəs də bunun şahididir. Şahidir ki, ölkə başçımızın bircə çağırışı ilə vətəndaşlar tövsiyələrə riayət etdilər və qadağalara deməkolar ki, tam şəkildə əməl olundu. Bütün bunlar özü-özlüyündə prezident-xalq, xalq-prezident birliyini göstərir ki, bu da bir həmrəylik nümunəsi olaraq dünya ictimaiyyətinin diqqətindən yayınan deyil. Məhz ona görə də cəsarətlə deyə bilərik ki, pandemiya ilə mübarizədə Azərbaycan modeli var və bu həmrəylikdir ki, dünya üçün də bu bir nümuinədir.

**İnam Hacıyev**

## "Azərbaycanın ürəyidir Naxçıvan" sənədli filmi Bolqarıstanda turizm film festivalında mükafatlandırılıb

Bolqarıstan Respublikasının Turizm Nazirliyinin himayəsi altında Turizm Film Festivalların Beynəlxalq Komitəsinin (International Committee of Tourism Film Festivals) üzvü olan "Avropanın Şərq Sahilində" adlı 16-cı Bolqarıstan Beynəlxalq Turizm Film Festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, festivalın məqsədi turizm məhsulları barədə videoçarxların geniş kütləyə çatdırılması, mədəni və tarixi irsin reklamına investisiya qoyulmasının stimullaşdırılması, turizm şirkətləri arasında marağın yaradılması, peşəkar audiovizual səyahət istehsalının təşviq edilməsi, yüksək effektiv reklam üçün mühitin formalaşdırılmasıdır. Film festivalında ölkələr, bölgələr, təbiət, mədəniyyət, tarixi yerlər və muzeylər, əyləncə turları, ənənəvi adət və ayinlər və s. mövzular üzrə hazırlanmış videoçarxlar online şəkildə geniş auditoriya tərəfindən izlənilib. Azərbaycanın Bolqarıstandakı səfirliyinin təşəbbüsü əsasında Naxçıvan Televiziyası tərəfindən hazırlanmış "Azərbaycanın ürəyidir Naxçıvan" adlı sənədli filmin ingilis dilində olan variantının namizədliyi Azərbaycan Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən festivalın təşkilatçılarına təqdim olunub. Film festivalın münsiflər heyəti tərəfindən təqdim olunub, filmlər nəzərdən keçirilib və qaliblər elan olunub. Festivalın "Turizm məkanı" kateqoriyası üzrə "Reportaj və ya sənədli film" alt-kateqoriyasında "Azərbaycanın ürəyidir Naxçıvan" adlı sənədli filmi qalib gəlib. Sənədli film festivalın rəsmi internet səhifəsində və "YouTube" kanalında yerləşdirilib.

Qeyd edək ki, festivalda iştirak muxtar diyarın mədəniyyəti, tarixi, adət-ənənələri və turizm potensialını təbliğ etməklə yanaşı, regionun zəngin irsi, potensialı və mövcud tərəqqisinin Avropa məkanında tanıdılmasına imkan verib. Festivalda, həmçinin təbiət-ekoturizm, idman-macəra və turizm xidmətləri kateqoriyaları üzrə mükafatçılar müəyyən olunub. 2020-ci ildə Azərbaycanla yanaşı festivalda Bolqarıstan, Danimarka, Xorvatiya, Sloveniya, Cənubi Afrika Respublikası, Çili, Fransa, Avstriya, Norveç, Rusiya, Portuqaliya, İndoneziya, İspaniya və Yaponiya daxil olmaqla, sözügedən festivalda 24 ölkə 54 filmlə iştirak edib.

# “Ölkəmizdə çoxpartiyalı sistem möhkəm əsaslar üzərində qurulur”

***“Azərbaycan dövlətinin demokratik təsisatların inkişafı, siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir. Azərbaycan hakimiyyəti hər zaman siyasi mədəniyyət nümunəsi olan dialoqun tərəfdarı kimi çıxış edir və bu yönümdə qətiyyətli addımlar atır. Dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə 2018-ci ilin prezident seçkilərindən sonra dərinləşən islahatlar prosesi bütün sahələri, o cümlədən siyasi sistemi əhatə edərək yeni bir mərhələnin əsasını qoyub”. Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.***



“İslahatlar həm konseptual, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Prezident Administrasiyası tam yeni tərkibdə formalaşıb, yeni şöbələr yaradılıb. Bu addımlar qarşıya qoyulan məqsədləri, niyyətləri təsdiqləyir” söyləyən V.Rəhimzadə əminliklə bildirib ki, yeni yaradılan şöbələr ümumilikdə ölkənin daha da inkişafına geniş imkanlar yaradacaq, qarşıya qoyulmuş hədəflərin gerçəkləşməsində öz böyük töhfələrini verəcək. Prezident Administrasiyasının bütün siyasi partiyalara dialoq təklifi idarəetmədə aparılan uğurlu islahatların göstəricisidir: “Ötən il bu məqsədlə Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı. Bu, siyasi sistemdə demokratik idarəçiliyin yeni keyfiyyət formasının təzahürüdür”.

Baş redaktor bildirib ki, parlament seçkilərindən sonra yeni tərkibdə formalaşan Milli Məclisin rəhbərliyinə müxalifət nümayəndəsinin seçilməsi də Azərbaycan hakimiyyətinin bu istiqamətdə həyata keçirdiyi genişmiqyaslı islahatların bundan sonra da davam etdiriləcəyinin göstəricisidir. Dövlətimizin başçısı bildirir: “Tarixdə ilk dəfə olaraq müxalifət nümayəndəsi Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək”.

V.Rəhimzadə qeyd edib ki, ümummilli lider Heydər Əliyevin “Nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə- Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir” fikirlərinin davamı olaraq möhtərəm Prezidentimiz bildirir ki, indiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsəd elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, həm də eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq.

Baş redaktor açıqlamasında onu da bildirib ki, ölkəmizdə siyasi partiyaların fəaliyyəti üçün bütün imkanlar yaradılıb. Ən əsası yeni “Siyasi partiyalar haqqında” Qanunun qəbulu dövrün, zamanın tələblərini əks etdirməklə yanaşı, həm partiyaların qeydiyyatdan keçməsi, həm də onların dövlət büdcəsindən maliyyələşməsi məsələlərini özündə ehtiva edir. Bütün bu addımlar ölkəmizdə çoxpartiyalı sistemin yaradılmasına və fəaliyyətləri üçün möhkəm qanunvericilik bazasının formalaşmasına xidmət edir. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Əgər doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün əsas spektri mövcud olmalıdır.

“Hakimiyyət tərəfindən atılan bu kimi addımlar, eyni zamanda, siyasi dialoqun müxalifət partiyaları tərəfindən dəstəklənməsi, ən əsası ümummilli məsələlərin həllində bir araya gəlib ümumi mövqenin ortaya qoyulmasına göstərilən səylər onu göstərir ki, artıq bu münasibətlərdə tamamilə yeni bir yanaşma mövcuddur” söyləyən V.Rəhimzadə bildirib ki, cənab İlham Əliyevin vurğuladığı kimi, başlanan siyasi dialoq ölkəmizə böyük fayda gətirəcək.

Baş redaktor diqqəti Prezident İlham Əliyevin bu günlərdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən söylədiyi bu fikirlərə yönəldib: “Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir”.

“Dövlətimizin başçısının siyasi qüvvələrlə dialoq təşəbbüsü ilə çıxış etməsi ölkəmizdə siyasi münasibətlərin yeni zəmində qurulacağına, milli maraqlar naminə iqtidar-müxalifət əməkdaşlığına daha çox diqqət yetiriləcəyinə, siyasi münasibətlərdə ciddi yeniliklərin baş verəcəyinə əminlik yaradır” deyən V.Rəhimzadə vurğulayıb ki, Prezident İlham Əliyev yeni formalaşmış parlamentin qarşısında dayanan vəzifələri açıqlayarkən bildirmişdir ki, Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq.

## “Avropa İttifaqı 2020-ci ildə ən ciddi iqtisadi enişlə üzləşəcək”



Avropa İttifaqı koronavirus pandemiyası səbəbindən 2020-ci ildə ən ciddi iqtisadi enişlə üzləşəcək. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə iqtisadiyyat üzrə Avropa komissarı Paolo Centiloni mətbuat konfransında deyib. “İndi Avropa İttifaqının tarixində ən dərin iqtisadin böhrana daxil olduğu aydındır”, - deyə Paolo Centiloni bildirib. Onun sözlərinə görə, Avropa İttifaqında ümumdaxili məhsulun real həcminin 7,4 faiz, onun iqtisadi nüvəsi olan avrozonada isə 7,7 faiz azalacağı proqnozlaşdırılır.

Avropa Komissiyasının bahar iqtisadi proqnozuna əsasən, Avropa İttifaqının heç bir ölkəsi cari ildə iqtisadi artıma nail ola bilməyəcək. Ümumdaxili məhsulun real həcmində ən zəif eniş Polşada, ən ciddi eniş isə Yunanıstanda gözlənilir (müvafiq olaraq 4,3 faiz və 9,7 faiz).

## Aparıcı xarici KİV-lər AZƏRTAC-ın Azərbaycanda koronavirusla mübarizəyə dair məqaləsini yayıb

***AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanovun “Böyük çağırış və liderin xilaskarlıq missiyası” sərlövhəli analitik məqaləsi ABŞ-ın, Avropanın, ərəb ölkələrinin bir sıra populyar KİV-ləri tərəfindən yayılıb.***

Azərbaycanın koronavirusla mübarizə təcrübəsindən bəhs edən analitik məqaləni dərc edənlər arasında “Foreign Policy News” (ABŞ), Nayrouz (İordaniya), “EU Politics” (Avropa İttifaqı) portalları, Ukrinform (Ukrayna) və “Amos news” (Rumıniya) agentlikləri var.

Beynəlxalq əlaqələri getdikcə genişlənən AZƏRTAC 50-yə yaxın ölkənin agentlikləri ilə tərəfdaşlıq sazişi imzalayıb, 100-dən çox agentliklə mütəmadi informasiya mübadiləsi aparır. 2016-2019-cu illərdə iki mötəbər beynəlxalq media qurumuna - Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına sədrlik etməsi AZƏRTAC-ın dünya informasiya məkanında mövqelərini gücləndirib. Nəticədə Azərbaycan həqiqətləri barədə informasiyalar bu gün daha geniş coğrafiyada yayılır.




Qeyd edək ki, “Böyük çağırış və liderin xilaskarlıq missiyası” sərlövhəli məqalədə Prezident İlham Əliyevin koronavirusla mübarizə strategiyasının müsbət nəticələri təhlil olunur, Azərbaycanın bu sahədə nümunəvi ölkələrdən biri olduğu faktlarla əsaslandırılır. Oxucuda koronavirusa qarşı mübarizənin Azərbaycan modeli barədə təsəvvür yaradılır, insan həyatının qorunması və əhalinin sosial müdafiəsi istiqamətində paralel olaraq həyata keçirilən tədbirlərdən söhbət açılır. Azərbaycandan dünyaya həmrəylik və əməkdaşlıq mesajlarının verildiyi diqqətə çatdırılır, buna misal olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının təmas qrupu formatında “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşləri nümunə göstərilir.

# Paşinyan hökuməti “iki daş arasında” qalıb

## *Referendum qərarı iqtidar komandasını parçalayıb*



***Məlum olduğu kimi, hakimiyyət tərəfindən başladılan və Konstitusiyada dəyişikliklər üçün nəzərdə tutulan, lakin əslində Konstitusiya məhkəməsinin sədrini, eləcə də 6 nəfər hakimi işdən uzaqlaşdırmağa hesablanan referendumun keçirilməsi hələ də “havadan asılı” vəziyyətdə qalıb”. SİA xəbər verir ki, bu barədə Ermənistanın “Past” qəzeti yazır.***

Erməni qəzeti həmçinin yazır ki, koronavirus pandemiyası bu mövzunu müvəqqəti şəkildə “dondursa” da, bəzi hakimiyyətə yaxınlığı ilə seçilən şəxslər onu müxtəlif vasitələrlə gündəmdə saxlamağa cəhdlər göstərirlər. Nəşr həmçinin yazır ki, referendum məsələsi əlbəttə ki, hakimiyyətin də gündəmində qalmaqdadır və onun kuluarlarında gəzən söz-söhbətlərə görə, mayın 14-də fövqəladə vəziyyətin aradan qaldırılmasından sonra həmin mövzu yenidən ön plana çəkiləcək.

### “Epidemiya yaxın günlərdə geri çəkilməyəcək və hətta 1-2 il uzana da bilər, biz geriyə addım ata bilmərik”

“Mənbələrimizin bildirdiklərinə görə, hakimiyyət və şəxsən baş nazir Paşinyan bu məsələdə kifayət qədər qətidir. Bizimlə həmsöhbət olanın sözlərinə görə, hakimiyyət daxilində aparılan müzakirələrin açar mövzusu ondan ibarətdir ki, onların başqa seçimləri də yoxdur, belə ki, “epidemiya yaxın günlərdə geri çəkilməyəcək və hətta 1-2 il uzana da bilər, biz geriyə addım ata bilmərik”. Lakin bu planda da hər şey birmənalı deyil”, “Past” yazır.

Qəzet qeyd edir ki, məlumata görə, hakimiyyət daxilində və hakimiyyətə yaxın ekspertlər və siyasi dairələrdə - satellitlərdə elə bir vəziyyət yaranıb ki, onlar müxtəlif düşüncələrə malikdirlər və eyni düşünmürlər.

### “Hər şey qarma-qarışıqdır”

“Bəziləri qanunlar çərçivəsində referendumun təyin olunduğu vaxtda keçirilməsinin və situasiyanın tənzimlənməsini tərəfdarıdırlar. Kimlər ki, əks düşüncədədirlər, onlar tələb edirlər ki, həmin məsələ parlament çərçivəsində həll olunsun. Başqa sözlərlə hər şey qarma-qarışıqdır”, adıçəkilən qəzet yazır.

Göründüyü kimi, əslində koronavirusun ölkədə sürətlə yayılması artıq hakimiyyətin də bir sıra planlarını altüst edir. Daha dəqiq desək, əgər Paşinyan Konstitusiya məhkəməsinin fəaliyyətinə xitam verməklə öz hakimiyyətinin müddətini uzatmaq planını tərtib edibsə, onun bu planı baş tutmaya da bilər. Xüsusilə, epidemiya dövründə parçalanmış iqtidar komandası müxtəlif qarşılıqlı ittihamlarla çıxış etməyə başlayıblar. Bu isə, Ermənistanda COVİD-19-la yanaşı, siyasi böhranın da sürətlə ayaq açıb-yeriməsinə şərait yaradıb. Hər halda, faktlar da bu reallığı kifayət qədər əks etdirməkdədir.

*Rövşən RƏSULOV*

# Ermənistanda koronavirusa yoluxanların sayı 2 782-yə yüksəldi



Ermənistanda daha 163 nəfərdə koronavirus aşkarlanıb. Məlumatı ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası üzrə Milli Mərkəzi yayıb. Beləliklə, Ermənistanda virusa yoluxanların sayı 2 782-yə yüksəlib. Məlumata görə, ölkədə pandemiyadan ümumilikdə 40 nəfər ölüb.

Bundan başqa, indiyədək 1 135 nəfər koronavirusdan sağalıb. Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus 212 ölkə və bölgədə qeydə alınıb. Dünyada koronavirus infeksiyasına indiyədək yoluxanların sayı 3,7 milyonu ötüb. Bunların 1,2 milyon nəfərdən çoxu sağalıb, 258 mindən çoxu isə ölüb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.

# Tovuzda dələduzluq edən şəxs saxlanılıb



Tovuz rayonunda vətəndaşın etimadından sui-istifadə etməklə dələduzluq yolu ilə onu işə düzəltmək adı altında aldadan və maddi vəsaitini ələ keçirən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Tovuz Rayon Polis Şöbəsi əməkdaşlarının rayon sakinindən daxil olan müraciət əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində dələduzluq etməkdə şübhəli bilinən, əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə dəfələrlə məhkum olunmuş, Ağcabədi rayon sakini, 36 yaşlı Zaur Sadıqov saxlanılıb. Araşdırma zamanı müəyyən edilib ki, Z.Sadıqov bir neçə ay əvvəl Tovuz rayonu ərazisində rayon sakinini işlə təmin edəcəyinə söz verərək onu dələduzluq yolu ilə aldadıb. Hələlik polisə rəsmi şəkildə müraciət edən bir zərərçəkəni bu üsulla aldadan Z.Sadıqov ümumilikdə onun min manata yaxın pulunu ələ keçirdiyini etiraf edib.

Bu şəxsin əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, 102 - Zəng Mərkəzinə, Tovuz Rayon Polis Şöbəsinə və ya ərazi üzrə polis idarə, şöbə və ya bölmələrinə müraciət edə bilərlər. Faktla bağlı araşdırmalar davam etdirilir.

# Yol polisi karantin rejimi ilə əlaqədar inzibati məsuliyyətə cəlb edilənlərin sayını açıqlayıb

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar mayın 5-də saat 00:00-dan mayın 6-da saat 00:00-dək olan müddət ərzində DYP əməkdaşları tərəfindən görülmüş işlər barədə məlumat yayıb. İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə mayın 5-də saat 00:00-dan mayın 6-da saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 423 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Aprelin 1-dən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə ümumilikdə 48 min 386 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub.





**RÖVŞƏN**

rovsen.rasulov@mail.ru

## Qanun... Qanun... Bir daha əlahəzrət qanun!

### Yaxud, Prezidentin mesajlarından nəticə çıxarmayanların gözlənilən aqibəti

Ölkədə aparılan çoxşaxəli islahatların tərkib hissələrindən biri də əlbəttə ki, korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizədir. Bu, bilavasitə dövlət idarəçiliyi sistemində Prezident İlham Əliyevin atdığı çoxsaylı qətiyyətli addımlarının bariz göstəricisidir. Əbəs deyil ki, dövlət başçısı hər dəfə xalqla açıq təmasları zamanı daim ictimai nəzarət faktorunu önə sürür, yerlərdə baş verən qanunsuzluqlar, vətəndaşların hüquqlarının kobud şəkildə pozulması halları barədə məlumatlandırılmasını vurğulayırdı. Bu, həm də bir mesaj idi - özbaşınalıqlara yol verənlərə, cah-cəlallıq içində yaşayıb, sadə vətəndaşın problemlərini kənara atanlara, xalqın haqqını yeyənlərə, dövlətin malını talayanlara yönəlmiş bir mesaj!

### Gözlənilirdi...

Gözlənilirdi, amma gözləri sözün əsl mənasında möhürlənmiş bir sıra dövlət məmurları onlara etibar edilmiş vəzifələrinə o qədər hərisliklə bağlanmışdılar ki, həmin gözləntinin onları haqlayacağına inanmırdılar. Fəqət çox nahaq yerə!

Bu gün sadə insanlar bu sual ətrafında daha çox vargəl edirlər ki, axı hazırkı dövrə qədər də, xalqın, dövlətin malını-mülkünü dağıdan, yeyib-bitirən məmurlar qanun qarşısına çıxarılaraq, layiqli cəzalarını alıblar, bəs nəyə görə bu ərəfələrdə həbs edilən bəlli icra başçıları buna məhəl qoymurdular? Bax, dövlət başçımızın “harınlamış, quduğan məmurlar” kəlamı da məhz onlara aiddir. Onların həbslərindən sonra görün nə qədər qanunsuz əməlləri nəticəsində əldə etdikləri var-dövlətləri üzə çıxmağa başlayıb, nə qədər insanların haqlarının pozulması faktları ictimai rəyin diqqətinə çıxarılıb..!

### Məgər bu da harınlamış, quduğan məmurlara bir siqnal olmayıbmı?

Xüsusilə, koronavirusun dünyada yel kimi əsərək, məmləkətimizə də iqtisadi ziyanlar vurması fonunda dövlətin bütün çətinliklərə rəğmən xalqın yanında olmasından, xalqın marağına xidmət etməsindən sui-istifadə edib qida, sosial və s. yardımlara (!) belə göz dikənlərə ən ağır cəzalar verilməlidir. Bir var xarici düşmən, bir də var daxili düşmən. Bax belələri onlara edilmiş etimadları kirli, iyrənc məqsədləri naminə bir kənara atıb, xalqın düşməninə çevriliblər və bağışlanmayacaqlar da!

Bu gün bir sıra tanınmış ictimai-siyasi, mədəniyyət, elm adamları dövlət başçımızın qətiyyətini dəstəkləyir, bu qətiyyəti birbaşa dövlətə və xalqa bağlılıq olaraq tərənnüm edirlər. Bəli, bu belədir, dövlət və xalq sevgisinin, o cümlədən, Prezident-Xalq etimad və etibarının məntiqi göstəricisi. Xalqının lideri, dövlətimizin Prezidenti cənab İlham Əliyev müxtəlif vaxtlarda regionlara etdiyi səfərləri zamanı hətta şəxsən ona ünvanlanmış məktub və müraciətləri qəbul edib, dinləyib və müvafiq addımlarını atıb. Məgər bu da harınlamış, quduğan məmurlara bir siqnal olmayıbmı? Təəssüf ki, möhürlənmiş gözlər bu dəfə də kor olaraq qalıb və nəticələr hasil olunmayıb. Olmadığına görə də zatən mövcud acı sonluqlarını, aqibətlərini yaşamaqdadırlar.

### Burundan gələn haram tikə və bumeranq həyat...

Ulu dədələrimizi bir sözü var, haram tikə gec, ya da tez mütləq burundan geri gələcək. O cümlədən, müasir dövrümüzün də bir ilginc kəlamını xatırlatmaq istərdim, həyat bumeranqdır. İndi həbs olunaraq məhkəmələrə çıxarılacaq günlərini gözləyən sabiq icra başçılarının nə cavab verəcəkləri çox maraqlıdır. Onlar bundan sonra nə qədər “peşmanıq” desələr belə çox gecdir. Vaxtilə qəbullarına düşmək üçün günlərdə icra hakimiyyətlərinin qapılarına ayaq döyən vətəndaşın haqq səsidir onlara həmin aqibəti yaşadan. Bahalı avtomobillərinə minərkən, ona müraciət edən vətəndaşı qovmanın, qovdurmanın nəticəsidir düşdükləri vəziyyət. Sonda isə necə deyərlər, qanun aliliyi öz sözünü deyir, bundan sonra da deyəcək. Əlbəttə ki, hələ də gözlərindəki möhürləri əlləri ilə ovub, dünyada yeni reallıqlarla baxa bilməyəcək üçün qanun gəlməkdədir. Qanun...Qanun... Bir daha əlahəzrət qanun!

# Ulu Öndərimiz Heydər Əliyev dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlər göstərməklə öz adını tariximizə qızıl hərflərlə yazıb



## *YAP Nəsimi rayon təşkilatının İdarə Heyətinin üzvü Şadət Nağıyein yap.org.az-a müsahibəsi*

***- Şadət müəllim, məlum olduğu kimi mayın 10-da müasir müstəqil Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur. Yeni Azərbaycan Partiyasının veteran üzvlərindən biri kimi, ilk olaraq Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin birinci dövrü haqqında fikirlərinizi bilmək istərdik...***

- Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan dövlətinin və xalqının inkişafı uğrunda fədakarlıqla çalışıb, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün tarixi xidmətlər göstərib.

Məlumdur ki, hər bir dövlət güclü iqtisadiyyatı ilə inkişaf edir və beynəlxalq müstəvidə böyük nüfuza sahib olur. Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə iqtisadiyyatın inkişafını xüsusilə diqqət mərkəzində saxlayıb. Təsadüfi deyil ki, hələ sovetlər dönəmində sosial-iqtisadi cəhətdən geridə qalmış Azərbaycan məhz 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə özünün intibah və tərəqqi dövrünə qədəm qoydu. Belə ki, o zaman aqrar respublika kimi keçmiş ittifaqda geridə qalan Azərbaycan Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti nəticəsində qısa müddət ərzində sənaye-aqrar respublikaya çevrildi. Bakı, Sumqayıt, Mingəçevir və digər şəhərlərdə böyük sənaye müəssisələri, zavod və fabriklər tikilib istifadəyə verildi. Eləcə də, kənd təsərrüfatında sıçrayışlı inkişaf baş verdi, pambıqçılıq və üzümçülük özünün pik səviyyəsinə çatdı. Mühüm məqam ondan ibarətdir ki, sovetlər dönəmində Ulu Öndərimizin yaratdığı iqtisadi potensial Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin inkişafında müstəsna rol oynadı.

Eyni zamanda, sovetlər dönəmində Ümummilli Liderimiz respublikamızda mədəniyyətin, incəsənətin inkişafı üçün böyük işlər gördü, bir çox yaradıcı insanların, ziyalıların keçmiş SSRİ-nin ali dövlət mükafatları, orden və medalları ilə təltif olunmasına nail oldu. 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR-nin Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Əlbəttə ki, bütün bunlar Ulu Öndərimiz tərəfindən atılan cəsarətli addımlar idi və milli şüurun oyanışına öz təsirini göstərirdi ki, bu da müstəqilliyə gedən yolumuza işıq salırdı.

Bütövlükdə, Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətinin birinci dövrü müasir tariximizin mühüm mərhələsini təşkil edir.

***- Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanı xilas etməsi ilə əlaqədardır. Həmin dövrü necə şərh edərdiniz?***

- Azərbaycana uğurla rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin fəaliyyəti o zaman keçmiş ittifaq rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi və O, Siyasi Bürönün üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Bu vəzifələrdə də Heydər Əliyev yüksək nailiyyətlər qazandı. Lakin SSRİ rəhbərliyinə gələn Mixail Qorbaçovun siyasətinə etiraz olaraq tutduğu vəzifədən istefa verdi. Məhz Heydər Əliyevin istefasından sonra Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları baş qaldırdı, Kremlin siyasətinə etiraz edən, azadlıq mübarizəsinə başlayan xalqımıza qarşı 20 Yanvar faciəsi törədildi. Həmin dövrdə Moskvada yaşayan Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək cəsarətlə Kremlin xalqımıza qarşı törətdiyi qətliama etiraz səsini ucaltması dünyada əks səda doğurdu. Çünki Heydər Əliyev dünya miqyasında tanınmış siyasi xadim idi.

Daha sonra Ulu Öndərimiz Vətənə qayıtdı, xalqımıza ağır zamanlarda dəstək olmaq istədi. Lakin o vaxtkı hakimiyyət buna imkan vermək istəmirdi. Əslində, xalq birmənalı şəkildə Onu hakimiyyətdə görmək istəyirdi. 1990-cı illərin əvvəlində hakimiyyətdə olan qüvvələr hər vəchlə Heydər Əliyevə olan xalq sevgisinin qarşısını almaq istəyirdilər. Bunu mən öz təcrübəmdən də deyə bilərəm. Həmin illərdə mən Bakı Dövlət Universitetinin tarix fakultəsinin axşam şöbəsində təhsil alırdım. Biz tələbə yoldaşları olaraq o dövrkü siyasi prosesləri müzakirə edirdik, digər insanlar kimi biz də çətin vəziyyətdən çıxış yolu kimi Heydər Əliyevin hakimiyyətə gəlməsində görürdük. Əgər Heydər Əliyev hakimiyyətdə olsaydı Qarabağ problemi tezliklə həll olunardı. Amma universitetin o vaxtkı rəhbərliyi tələbələrin Heydər Əliyevə olan sevgisindən çox narahat idilər, gənclərə təzyiq göstərirdilər. Belə demək mümkünsə, onlar Heydər Əliyevin adından belə qorxurdular. Amma biz tələbələr olaraq fikirlərimizi açıq şəkildə ifadə edirdik. Çünki dediyim kimi, Azərbaycanı ağır vəziyyətdən yalnız Heydər Əliyev dühası xilas edə bilərdi. O vaxt hakimiyyətə olan qaragüruhçu insanlar təzyiqlərini ara vermirdilər. şəxsən mənə qarşı çox təzyiqlər edilirdi. Müxtəlif bəhanələrlə 1992-ci ilin oktyabr ayında mən universitetdən xaric olundum. Amma əsas səbəb mənim Heydər Əliyevi müdafiə və təbliğ etməyimlə bağlı idi. Buna baxmayaraq, mən mübarizəmi davam etdirdim və haqq-ədalətin yanında olan müəllimlərimin dəstəyi ilə 1993-cü ilin aprelində pozulmuş hüquqlarımı bərpa etdim, universitetə bərpa olundum.

Bununla belə, mübarizəmdən dönməyərək Heydər Əliyevin ideyaları ətrafında sıx birləşmək üçün 1993-cü ildə Ulu Öndərin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıralarına qoşuldum. Çünki bu partiya özündə Ulu Öndər Heydər Əliyevə inanan insanları birləşdirirdi və bu yolda mübarizəmizi davam etdirmək üçün Yeni Azərbaycan Partiyasının üzvü olmaq daha geniş imkanlar yaradırdı.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa müddətdə ölkəmizi təhlükələrdən xilas etdikdən, ictimai-siyasi sabitliyi bərqərar etdikdən sonra iqtisadiyyatın inkişafı istiqamətində mühüm addımlar atmağa başladı. Beləliklə, Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlandı, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar yatırıldı, bu mərhələdə ilk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı, "Əsrin müqaviləsi" imzalandı.

Eləcə də, ölkəmizdə bütün sahələr üzrə tərəqqi və intibah başladı, milli həmrəylik gücləndirildi, ilk milli Konstitusiya qəbul olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində əməli addımlar atıldı. Ulu Öndərimiz müstəqil dövlətçiliyimizin təmə prinsiplərini müəyyənləşdirərək Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndərimiz Heydər Əliyev dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlər göstərməklə öz adını tariximizə qızıl hərflərlə yazıb.

***- Bu gün Azərbaycan məhz Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ulu öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir...***

- Bəli, bu gün müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsi kimi, qarşıya qoyduğu bir çox məqsədlərinə nail olub. Prezident İlham Əliyevin ölkəni idarə etdiyi dövrdə bir zamanlar yalnız xəyal kimi görünən nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı digər məqsədlər artıq gerçəkliyə çevrilib.

Ümummilli Liderimizin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Heydər Əliyev ideyalarına söykənir və əldə edilən dinamik inkişaf, sarsılmaz ictimai-siyasi sabitlik göstərir ki, müasir müstəqil Azərbaycanın seçdiyi strateji yol milli maraqlara və xalqın ali iradəsinə əsaslanır. Bir sözlə, Ümummilli lider Heydər Əliyevin siyasi kursu müasir dövrün aktual çağırışlarına müvafiq olaraq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və qeyd etdiyimiz kimi, Azərbaycan tərəqqi yolunda uğur və inamla irəliləyir.

***- Yeni mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatların ölkəmizin gələcək inkişafı baxımından əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

- Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə islahatların yeni mərhələsinə başlanılıb. Bu məqsədlə dövlət başçısı bir sıra mühüm Fərman və sərəncamlar imzalayıb, Milli Məclis müvafiq qanunvericilik aktları qəbul edib. Müvafiq dövlət qurumları qarşıya qoyulan hədəflərə çatmaq üçün uğurla fəaliyyət göstərir.

Ümumiyyətlə, islahatlara bütün səviyyələrdə güclü dəstək nümayiş etdirilməsi, əldə olunan ilk nəticələr onu deməyə əsas verir ki, başlanan yeni kurs postneft dövründə ölkəmizin uğurlu inkişafını təmin edəcək. Prezident İlham Əliyevin vurğuladığı kimi, iqtisadiyyat dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorumuz inkişaf edəcək.

Eləcə də, idarəetmədə, kadr və siyasi-hüquqi sahədə islahatlar da ölkəmizin inkişafına daha da təkan verəcək. Təbii ki, həyata keçirilən bütün bu tədbirlərin əsasında Heydər Əliyev siyasəti dayanır. Çünki Ümummilli Lider Heydər Əliyev Azərbaycanın inkişaf strategiyasının müəllifidir. Məhz bu siyasət nəticəsində ölkəmizin bundan sonra da yeni-yeni uğurlar qazanacağı şübhəsizdir.

# Avtobus və taksilərdə arakəsmələrlə bağlı vəziyyət nə yerdədir?

"TƏBİB-in COVİD-19 infeksiyasının profilaktikasına dair metodiki göstərişlərindən irəli gələrək artıq avtobuslarda sərnişin və minik avtomobillərində sərnişin sürücü təmasını minimuma endirilməsi üçün şəffaf arakəsmələrin quraşdırılmasına başlanılıb. Bu təşəbbüs aprel ayının ortalarından mövcud idi və Bakı Nəqliyyat Agentliyinin şəxsi təşəbbüsü ilə taksi şirkətlərinin bir qismində artıq bu arakəsmələr quraşdırılıb". Bu barədə SİA-ya Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev məlumat verib.

O bildirib ki, son metodiki göstərişlərdən irəli gələn tədbirlər çərçivəsində isə artıq daşıyıcı şirkətlər tərəfindən də avtobuslarda sərnişin sürücü təmasının azaldılması məqsədilə arakəsmələrin quraşdırılmasına başlanıb: "Ötən gündən başlanan proses nəticəsində artıq 200 avtobusda arakəsmələr quraşdırılıb. Proses bu gün axşam da davam edəcək. Eyni zamanda sərnişin axının zəif olduğu gündüz saatlarında da avtobuslar mümkün olduğu zaman istehsalat bazasına gətirələrək arakəsmələr quraşdırılır".



M. Ağayev qeyd edib ki, arakəsmələr avtobusların konstruksiyasına uyğun olaraq dəyişir: "Ümumilikdə Bakı şəhəri üzrə sərnişindaşıma prosesinə cəlb edilən 553 avtobusda əvvəldən istehsalat bazasında quraşdırılan xüsusi sürücü kabinləri mövcuddur. Bu avtobusların əksəriyyəti "Baku Bus" MMC-yə məxsusdur". Qurum sözçüsü vurğulayıb ki, taksilərdə də arakəsmələr quraşdırılır: "Hazırda 300 taksi avtomobilində arakəsmələr başa çatıb. Metodik göstərişlərdən irəli gələn digər - maska taxılması, sosial məsafənin saxlanması, təbliğat materiallarının hazırlanaraq avtobuslarda vurulması ilə bağlı bir sıra məsələlər var ki, hazırda onlarla bağlı da işlər aparılır".

# Konstruktivliyin destruktivlik üzərində qalibiyyəti

## *Küçə təfəkkürü və çayxana müxalifətçilyi siyasəti daha keçməyəcək*




***Sivil müxalifətçilik, yaxud konstruktiv baxış sisteminə və idarəçiliyinə üstünlük verən REAL partiyasına qarşı özlərini "ana müxalifət" adalandıran radikal cinahların hücumları hələ də davam edir. Ya söyüş qrupları vasitəsi ilə sosial şəbəkələrdə, ya da KİV-lərdə partiya rəhbərliyini hədəfə alan radikallar siyasi fəaliyyət məsələsində onları üstələməyi bacaran REAL rəhbərliyini hələ də satnıqlıqda, xəyanətdə ittiham etməkdədirlər.***

Əslində, sağlam düşüncəli insanlar AXCP, "Milli Şura", Müsavat və s. bənzər siyasi təşkilatların ittihamlarını ciddiyə almırlar. Çünki davamlı qaragüruhçuluqları, küçə təfəkkürü, yaxud çayxana müxalifətçiliyi təsiri altında əsrin dörddə birini "biz gəlirik" şüarı ilə keçirənlərin bundan sonra hər hansı uğur əldə edə biləcəkləri də inandırıcı görünmür. Müxtəlif problemləri icazəli, yaxud icazəsiz aksiyalarla, mitinq və küçə yürüşləri ilə həll etməyə, bu vasitə ilə sosial dəstək almaqla "həll edəcəklərini" düşünənlərin son anda heç bir dəstək ala bilməmələri də illərdir ki, sübuta yetirilməkdədir. O cümlədən, müxalifətçilik deyərkən, belə hay-harayçılıqların heç bir səmərə vermədiyi də artıq sübuta yetirilib. Məhz bu gerçəklikdən çıxış edərək, REAL partiyasının qarşı tərəfə verdikləri cavabları da maraq doğurur...

### REAL partiyası: "Bu məntiqsiz və axmaq yanaşmadır"

"Biz həmişə problemlərin sistemli həllindən yana olmuşuq". Bu fikirləri REAL partiyasının icraçı katibi Natiq Cəfərli mətbuata bu və bu kimi digər mövzulara münasibətini açıqlayarkən deyib. Onun da düşüncəsinə görə, görünür, bəzi müxalifətçiləri bu qane etmir: "Çünki onlar özlərindən başqa kim fərqli düşünürsə, fərqli təkliflərlə çıxış edirsə həmin qüvvəyə qarşı qaralama kampaniyası aparmaqdan qeyri əllərindən heç nə gəlmir. Biz bu günə qədər heç bir partiyanı satqınlıqda ittiham etməmişik. Çünki, bu məntiqsiz və axmaq yanaşmadır".

### Natiq Cəfərlidən Əli Kərimiyə xitabən: "Özlərini müxalifət naziri hesab edirlər"

N.Cəfərli bu xüsusda məhz AXCP sədri Ə.Kərimliyə xitabən bildirib ki, o və onun ətrafındakılar özlərini hər kəsdən "ağıllı" hesab edirlər, amma bu zaman onların axmaqlıqları daha çox görünməyə başlayır: "...Amma bəziləri var ki, sanki özlərini müxalifət naziri hesab edirlər. Sanki əllərində möhür var, kimə istəsələr o möhürlə müxalifət, kimə istəsələr satqın deyə bilərlər. Bu cür yanaşma ilə 25 ildir ölkədə yanlış müxalifət ab-havası yaradıblar. Bu yanaşmanı dağıtmaq, dəyişmək lazımdır. REAL bu istiqamətdə addımlar atır. Biz dəqiq bildiyimiz yolu getməkdə davam edəcəyik. Son nəticədə kimin haqlı olduğu aydın görünəcək".

Görünən isə budur ki, radikalçılıq kimi ucuz siyasət üzərində var-gəl edənlərin son anda saman çöpündən yapışmaları təsirini bağışlayan görüntü əslində reallıqdır. Çox yəqin ki, destruktivlər qanadı hətta siyasi məzarlığa doğru sürətlə irəliləyərkən belə, səslərinin uca çıxmasını istəyirlər. Necə ki, alov sönənə yaxın son şöləsini saçır və təhlükə törətmək imkanları sıfıra bərabər olur...

***Rövşən RƏSULOV***

# "Vətəndaşlar birdəfəlik ödəməni banklardan ala biləcəklər"

"Bildiyiniz kimi ölkəmiz tərəfindən koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində həm iqtisadi, həm də sosial sahədə kompleks Tədbirlər Planı hazırlanaraq ona uyğun şəkildə addımlar atılır. Əmək və əhalinin Sosial Müdafiəsi Nazirliyi də məşğulluq və sosial problemlərin həlli ilə bağlı hökumət tərəfindən müəyyən edilən Tədbirlər Planında nəzərdə tutulan işləri həyata keçirir". SİA-nın xəbərinə görə, bunu açıqlamasında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib.

Tədbirlər Planına uyğun olaraq işsiz şəxslərə 190 manat məbləğində 2 aylıq müddəti əhatə edən birdəfəlik yardımın ödənilməsinin nəzərdə tutulduğunu xatırladan nazir müavini bildirib ki, aprel ayının 7-dən başlayaraq, ödəmə ilə bağlı müraciətlərin qəbuluna başlanılıb: "Artıq mayın 5-i 600 mininci şəxsə ödəmənin təyinatı ilə bağlı qərar qəbul edilib. Bu da o deməkdir ki, biz ilk ayın proqramının tam şəkildə yekunlaşdırıldığını deyə bilərik".

Qurum rəsmisi söyləyib ki, müraciətlərin qəbulu elektron şəkildə həyata keçirilir: "Vətəndaşlara heç yerə getmədən onlara müraciət etmək imkanları yaradılıb. Ödəmələrin verilməsi ilə bağlı qərar edilən müraciətlər aiddiyyatı orqanlar tərəfindən təhlil edilərək qiymətləndirildikdən sonra qəbul edildi. Ilkin vaxtlar ödəmən alacaq şəxslərin sayı 200 min nəzərdə tutulmuşdusa, ölkə başçısının humanist qərarı nəticəsində bu say 3 dəfə artırılaraq 600 min nəfərə şamil edildi.Həmin şəxslərin adları nazirliyin rəsmi saytında yer alan siyahıda öz əksini tapıb".



A.Əliyev qeyd edib ki, may ayında həyata keçiriləcək birdəlik ödəmələr banklar vasitəsilə həyata keçiriləcək: "Artıq bu məqsədlə Mərkəzi Bankla müvafiq danışıqlar aparılıb. Mərkəzi Bank bu məsələrə operativ şəkildə müdaxilə edərək dəstək göstərdi. Artıq bütün bank sektoru bu prosesə cəlb olunub. Artıq vətəndaşlar üçün kartlar sifariş edilib, bank hesabları açılıb. Vətəndaşların nömrələrinə göndəriləcək SMS-də onların hansı banklara müraciət edəcəyi qeyd olunacaq".

Nazir müavini vurğulayıb ki, bu sahədə vətəndaşların ən çox ünvanladığı sual onların Bakı şəhərində yaşamasına baxmayaraq, gələn SMS-lərdə regionlarda yerləşən bank filalına müraciət etməsinin qeyd edilməsidir: "Bu vətəndaşların bizə elektron şəkildə müraciət etdikləri zamanı orada göstərilən ünvanla bağlıdır. Vətəndaş öz elektron müraciətində hansı ünvanı göstəribsə, bank kartları da həmin ünvana uyğun olaraq hazırlanır. Bu əlbəttə ki regionda yaşayan vətəndaşların rahatlığı üçün atılan addımdır. Əgər vətəndaş Bakıdadırsa, ona ödəmənin regional bankdan alınması ilə bağlı SMS gəlibsə, o zaman vətəndaşlar narahat olmamalı, olduğu yer üzrə banka müraciət edərək ödəməni ala bilərlər".

***Nailə Məhərrəmova***

# Koronavirus testinin nəticəsi neqativ olan şəxslərə SMS göndərilir

Koronavirus pandemiyası ilə mübarizəyə ayrılmış tibb müəssisələri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən avtomatlaşdırılıb. Agentlikdən SİA-ya verilən məlumata görə, koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində ölkədə həyata keçirilən tədbirlərə dəstək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) İnformasiya Texnologiyaları və İnnovasiyalar İdarəsi tərəfindən ölkə üzrə 120 nümunə qəbulu məntəqəsi və 19 laboratoriya avtomatlaşdırılıb.



Belə ki, sözügedən müəssisələr kompüter avadanlıqları, printerlər, bar kod oxuyucuları, operativ şəkildə nümunələrin qəbulu və nəticələrin əldə edilməsi üçün proqram təminatı ilə təchiz olunublar.

Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün analiz nümunələrinin qəbulunu həyata keçirən nümunə qəbulu məntəqələrinə pandemiya ilə mübarizəyə ayrılmış xüsusi rejimli tibb müəssisələri və təcili və təxirəsalınmaz tibbi yardım xidmətləri daxildir.

Məqsəd koronavirusla bağlı aparılan testlərin nəticələrinin avtomatik olaraq vahid məlumat bazasına işlənilməsini təmin etmək, nəticələr barədə Nazirlər Kabineti yanında Operativ Qərargahı, eləcə də digər aidiyyəti dövlət qurumlarını elektron şəkildə məlumatlandırmaqdır.

Həmçinin Agentlik test nəticəsi neqativ olan şəxslərə SMS ismarıcın göndərilməsini təmin edib. Belə ki, testin nəticəsi neqativ olan şəxslər bu barədə məlumatı Agentlik tərəfindən göndərilən SMS ismarıc vasitəsilə əldə edəcəklər.

# Super Ay tutulması nədir və nə vaxt görünəcək?



***Ayın dünyaya ən yaxın mövqedə olduğu, normaldan daha parlaq və böyük müşahidə olunduğu səma hadisələrindən biri yaxın günlərdən baş verəcək.***

SİA-nın məlumatına görə, bu il ilki 9 fevralda, ikincisi 9 martda, üçüncüsü isə 8 apreldə görülən Super Ayın dördüncüsü və bu il içindəki sonuncusu 7 may cümə axşamı görüləcək. Super Ayı dünyanın müxtəlif yerlərindən görmək olar, ancaq aydınlığı insanın yerləşdiyi yerə və havadan asılı olaraq dəyişəcəkdir.

Yerin peyki Ayın mövqeyinə və ölçüsünə görə Yerin orbitə çıxması zamanı fərqli göy hadisələrinin səhnə olur.

**Super Ay nədir?**

Yerdən sabit bir məsafə olmayan Ayın yaşıl planetə olan məsafəsi hər dövrdə 357 min km ilə 406 min km arasında dəyişir. Ayın tam ay fazası ilə üst-üstə düşdüyü zaman Super Ay və Mikro Ay adlı xüsusi hallar baş verir. Növbəti Super Ayın 2021-ci il aprelin 27-də olacağı gözlənilir.

# Apreldə 2,3 milyon şəxsə sosial ödənişlər həyata keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri üzrə müəyyən edilmiş proqnozun 105,5 faiz həcmində icra edilməsi, əsassız pensiya işlərinin təmizlənməsi nəticəsində DSMF-nin xərclərinə qənaət hesabına yaranmış 200 milyon manatlıq ehtiyatı bu sahədə əhəmiyyətli dəstək olub. AZƏRTAC xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev müsahibəsində deyib. S.Babayev, həmçinin diqqətə çatdırıb: "Nazirlik apreldə 2,3 milyon şəxsə sosial ödənişlər - 1 milyon 270 min nəfərə pensiya, 418 min nəfərə müavinət, 298 min nəfərə təqaüd, 82 min 300 ailənin 342 min üzvünə ünvanlı sosial yardım ödənişləri həyata keçirib. Bu istiqamətlər üzrə əhaliyə təkcə aprel ayında ötən ilin müvafiq dövrünə nisbətən 27 faiz və ya 103 milyon manat çox olmaqla 480 milyon manatdan artıq vəsait ödənişi icra olunub."

# Uçuruma gedən xunta

## İndi də Ermənistanın xarici işlər nazirinin sərsəm bəyanatı öz ölkəsini uçuruma aparır

***Məlum olduğu kimi, Ermənistanın Xarici İşlər naziri Zohrab Mnatsakanyanın 21 aprel 2020-ci il tarixdə Yerevanda keçirdiyi mətbuat konfransında Rusiyanın Xarici İçlər naziri Sergey Lavrovun Qarabağ münaqişəsinin həlli ilə bağlı açıqlamasına cavab olaraq bildirib ki, Ermənistan üçün Qarabağ məsələsinin Azərbaycana ərazi güzəştləri ilə həlli yolverilməzdir. Qeyd etmək lazımdır ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov A.M.Qorçakov adına Xalq Diplomatiyasına Dəstək Fondunun iştirakı ilə keçirilən tədbirdə çıxış edərkən BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qətnamələrinin həyata keçirilməsində ən vacib addımın, tərəflərin 2019-cu ilin aprel ayında Moskvada qəbul etdiyi sənədin imzalanması olduğunu bildirib: "Bu sənəd mərhələli yanaşma əsasında nizamlamaya doğru irəlləməyi nəzərdə tutur, ilk mərhələdə ən aktual problemlərin həllini, Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad edilməsini və nəqliyyat, iqtisadiyyat və digər əlaqələrin blokadasının aradan qaldırılmasını nəzərdə tutur".***

Ermənistan XİN-i bildirib ki, Dağlıq Qarabağ ətrafındakı ərazilər (söhbət Azərbaycanın işğal edilmiş 7 rayonundan-Ağdam, Kəlbəcər, Fizuli, Zəngilan, Oubadlı, Laçın, Cəbrayıl gedir) hər şeydən əvvəl təhlükəsizlik zonasını və müdafiə xəttini təşkil edir. Bu ərazilər geri qaytarıla bilməz. Onun sözlərinə görə, Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda prioritet olan öz müqəddəratını təyinetmə prinsipi mövcuddur. Ermənistan XİN-nin bu açıqlaması bir daha göstərir ki, uzun danışıqlar prosesinin getməsinə baxmayaraq Ermənistanın mövqeyində heç bir dəyişiklik baş verməyib, onların işğal altında olan torpaqlarımızı azad etmək fikirləri yoxdur.



### Ermənistan işğalçılıq siyasətindən əl çəkmir

Beləliklə, Ermənistan əvvəldə oduğu kimi yenə də beynəlxalq hüquq normalarını heçə sayır öz işğalçılıq mövqeyindən əl çəkmir. Lakin Azərbaycan isə, Ermənistan, Dağlıq Qarabağ, Azərbaycan münaqişəsi dinc yolla, danışıqlar yolu ilə beynəlxalq hüquq normalarına əsasən həll edilməsini dəfələrlə vurğulayıb. Və bildirib ki, əgər Ermənistan tərəfi buna razı olmazsa, Azərbaycan dövləti digər vasitələrdən istifadə edərək öz əzəli torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa edəcək. Çünki Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Və bu günə qədər Azərbaycanın bütün hərbi və siyasi imkanlarına rəğmən, münaqişəni sülh yolu ilə həll etməyə istiqamətlənmiş səyləri məhz Azərbaycan Respublikasının insan həyatına verdiyi dəyərin göstəricisidir.

Lakin işğalçı ölkə olan Ermənistanın xarici işlər naziri utanmadan təhlükəsizlik problemlərindən, müqəddəratı azad şəkildə ifadə etməkdən danışır. Hərbi işğal şəraitində hansı təhlükəsizlikdən danışmaq olar? Bir ölkə tərəfindən digər ölkənin ərazilərinin işğalı faktının özü elə davamlı təhlükə mənbəyi deyilmi? Qarabağın əhalisinin üçdəbirinin öz daimi yaşayış yerlərindən didərgin salındığı və 30 ilə yaxındır ki, evlərinə qayıtmaq imkanından və öz bölgələrinin gələcəyinə dair azad iradə nümayiş etdirilməsindən məhrum olduqları bir vaxtda nə Qarabağ əhalisinin təhlükəsizliyi, nə də azad iradənin nümayiş etdirilməsindən danışmaq olmaz.

### Baş nazirin eyni təfəkkürlü xarici işlər nazir...

Atalar demişkən: "Kor atın kor da nalbəndi olar". Faşist xislətli, küçə təfəkkürlü baş nazirin xarici işlər naziri də eyni təfəkkürlü olmalıdır. Necə deyərlər "atı atın yanında bağlasan həmxasiyyət olmasa da, həmrəng olur". İndi də Ermənistanın xarici işlər naziri elə zənn edir ki, sərsəm bəyanatların bir nəticəsi olacaq, ancaq anlamırlar ki, beynəlxalq hüquq normalarında dövlətlərin ərazi bütövlüyü BMT-nin qətnamələrində, bütün beynəlxalq təşkilatların qərarlarında təsdiq olunur ki, dövlətlərin ərazi bütövlüyü təmin olunmalıdır, güc yolu ilə onları dəyişdirmək mümkün deyil. Və bu həqiqəti də anlamırlar ki, istər BMT-nin əsas qətnamələrində, istərsə də əsasnaməsində dövlətlərin süverenliyinin pozulması yolverilməzdir. Buna əsaslanaraq Azrbacan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşündə də Azərbaycanın ərazi bütövlüyü təmin olunmasının vacibliyini bəyan edildi.

### Cozef Borrell: "Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə sadiq qalır"

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrell Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə Aİ-nin dəstəyini ifadə edib. Aİ ali nümayəndəsi Cozef Borell Dağlıq Qarabağda keçirilmiş qondarma seçkilərlə bağlı Avropa Parlamentinin üzvünün sualını cavablandırıb: "Avropa İttifaqı Azərbaycan da daxil olmaqla bütün tərəfdaş ölkələrin ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə sadiq qalır. Bu 2017-ci il Şərq Tərəfdaşlığı Sammitinin bəyannaməsində açıq şəkildə qeyd edilib".

C.Borell Avropa İttifaqının münaqişələrin müəyyən edilmiş formatda sülh yolu ilə həllini dəstəkləməyə sadiq olduğunu da qeyd edib. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstinə gəldikdə, Aİ-nin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində ATƏT-in Minsk Qrupu həmsədrlərinin, o cümlədən Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin səylərini və təkliflərini dəstəkləməkdə davam etdiyi Ali Nümayəndə tərəfindən vurğulanıb.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Aİ-nin Xarici Fəaliyyət Xidmətinin sözçüsünün 31 mart 2020-ci il tarixində verdiyi bəyanatda Aİ-nin Dağlıq Qarabağda keçirilmiş qondarma "prezident və parlament seçkiləri"nin konstutision və hüquqi çərçivəsini tanımadığını bir daha təkrar edərək, bu hadisənin Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsinə və ya davam edən danışıqlar prosesinin nəticələrinə xələl gətirə bilməyəcəyini vurğulayıb.

Göründüyü kimi, işğalçı ölkənin bugünükü vəziyyəti və erməni xalqının əc, yalavac vəziyyətdə olmasını sadə erməni xalqı artıq anlayır və bu gün daxili kütləyə hesablanmış boş-boş bəyanatlar hay-küydən, göstərişlə pərdələnmiş tələşdan başqa bir şey deyil. Və yadda saxlamaq lazımdır ki, işğal müvəqqətidir. Ermənistan bunu nə qədər tez dərk edərsə və öz-özünü, xalqını aldatmağa, həmçinin beynəlxalq ictimaiyyəti yanıltmaq səylərinə son verərsə, qan tökülməsinin və onsuz da heç də yaxşı olmayan vəziyyətin daha da pisləşməsinin qarşısının alınması üçün bir o qədər çox şansı olar.

### Karen Bekaryan: "Ermənistan Xarici İşlər naziri istefa verməlidir"

"Ermənistanın strateji tərəfdaşı, müttəfiqi, ATƏT-in Minsk qrupunun həmsədri Rusiyanın Xarici İşlər naziri bəyan etdi ki, Qarabağ münaqişəsinin mərhələli həll variantı (həmçinin ilk mərhələlərin gözləntisini qeyd edərək) danışıqlar masasında müzakirə olunur və bunun ətrafında razılaşma BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçirmək yolunda addım olacaq". Bunu erməni siyasi analitik Karen Bekaryan özünün "Facebook" səhifəsində yazıb. O, Lavrovun Dağlıq Qarabağ münaqişəsi danışıqlarının mərhələli variantla həlli haqqında bəyanatını şərh edib və qeyd edib ki, Ermənistan Xarici İşlər naziri istefa verməlidir: "Əgər Rusiya Xarici İşlər nazirinin dedikləri reallığa uyğun gəlmirsə, onda bu, sadəcə Ermənistan-Rusiya ikitərəfli münasibətlərinin tam uğursuzluğunun göstəricidir, çünki dezinformasiya diversiyası heç vaxt səbəsiz təşkil olunmur. Əgər Rusiya Xarici İşlər nazirinin dedikləri reallığa uyğun gəlirsə, onda Ermənistanın milli, dövlət maraqlarının uğursuzluğu və öz cəmiyyətinə ardıcıl olaraq yalan danışmaqla işimiz var. Hər iki halda Xarici İşlər naziri istefa verməli və ya tutduğu vəzifədən uzaqlaşdırılmalıdır".

### Marqarit Yesayan: "Günahkar Paşinyanın özüdür, bu, həmin Paşinyan sayəsində baş verdi"

Ermənistan parlamentinin keçmiş deputatı Marqarit Yesayan isə bildirir ki, ümid hər zaman yaxşı şey deyil, çünki ümiddən ümidsizliyə qədər hətta yarım addım deyil: "Ermənistanın siyasi həyatının pazlı mozaikası yavaş-yavaş toplanır və iki il əvvəlki fəaliyyətlər tədricən məntiqi sonuna çatır. O qədər də müxalif olmayan qüvvələr, hakimiyyəti zəbt etmiş Paşinyan sayəsində yetişdi. Bir də Paşinyanın elə də baş nazir ola bilmədiyi aydındır. İnsan heç vaxt dəyişmir. Bu, aksiomdur. İki il Ermənistanın Baş naziri vəzifəsində oturmuş Paşinyan Nikol elə də Baş nazir, icra orqanının rəhbəri, ölkə rəhbəri olmadı. Eyni olaraq qaldı və insanlar bunu görürlər, çəhrayı eynəklər o tərəfə atılıb. Bunun günahkarı Paşinyan özüdür, bu, həmin Nikol Paşinyan sayəsində baş verdi".

### Rusiyalı politoloq: "Rusiya Ermənistanda aktiv proseslərin hələ başa çatmadığını görür, onları izləyir"

"Ermənistan-Rusiya münasibətlərində gərginlik yox, problemlər var". Bunu rusiyalı siyasi analitik Fyodor Lukyanov deyib. Lukyanovun sözlərinə görə, bu problemlər zaman-zaman yaranır və erməni-rus münasibətləri üçün yeni hadisə deyil. O qeyd edib ki, gərginliyi problemlərdən fərqləndirmək lazımdır, gərginliyə çevrilməyən problemlər var: "Bu problemlər tərəfdaş ölkələrin hakimiyyətlərinin addımları, bəyanatları bir-biri üçün tamamilə anlaşılan olmayanda yaranır".

### Erməni diplomat: "Bu gün Ermənistanda baş verənlər sadəcə dövlət xəyanətidir"

Ermənistanın Vatikandakı keçmiş səfiri Mikayel Minasyan bu gün Ermənistanda baş verənləri dövlət xəyanət adlandırıb. Minasyan qeyd edib ki, o xəşbəxt və yaxşı yaşaya bilərdi: "Birmənalı olaraq mən buna qadir idim və qadirəm, Ermənistanın fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tərk etdikdən sonra beynəlxalq strukturlarda, beynəlxalq korporasiyalarda, özəl şirkətlərdə və eləcə də başqa dövlətlərin hökumətləri tərəfindən bir çox iş təklifləri almışam, mən onları rədd etmişəm, rədd etmişəm, çünki dövlətimin və xalqımın necə məhv olduğuna oturub baxa bilməzdim və oturub baxa bilmirəm".

O, Paşinyanın pul ödəmək və Ermənistana gəlməmək təklifini niyə rədd etdiyini izah edib: "Mən Nikol Paşinyanı rədd etmişəm, çünki mən xalqım və vətənim bu vəziyyətdə olanda özümü bağışlaya və yaxşı yaşaya bilməzdim. Çünki mən çoxlarından fərqli olaraq nəinki proqnozlaşdırmışam, həmçinin yazmışam və demişəm ki, bizi böyük fəlakət gözləyir. Mən səmimi şəkildə sadəcə yalançı, məsuliyyətsiz, xalq düşməni və təəssüflə əlavə etməliyəm ki, dövlət düşməni hesab etdiyim insanlarla razılaşa bilmərəm".

### Məntiqi nəticə...

Göründüyü kimi, Ermənistan nə qədər təxribat və sərsəm bəyanatlar səsləndirsə də, Paşinyan və komandası da daxil, bütövlükdə erməni toplumunun qurtuluşu, xilası məhz elə Azərbaycanla bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu gün demək olar ki, Dağlıq Qarabağ problemindən başqa heç bir məsələ həll olunmamış qalmır: "Aprel hadisələrindən sonra, ilk növbədə, dünya ictimaiyyəti, vasitəçiliklə məşğul olan beynəlxalq qurumlar, təşkilatlar bir daha əmin oldular ki, Azərbaycan xalqı ərazilərinin işğal altında qalması ilə barışmayıb və barışmayacaq. Bu, Ermənistan hakimiyyəti üçün də bir dərs olmalıdır. Yəqin ki, onlar lazımi nəticələr çıxaracaq və danışıqlar prosesində konstruktiv mövqedən çıxış edəcəklər. Uzun müddət davam edən status-kvo tezliklə dəyişməli, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan əsgəri "hərbi yolla Dağlıq Qarabağ münaqişəsinin həlli yoxdur" fikrini təkrarlayanlara real şəkildə sübut etdi ki, hərbi yolla torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi mümkündür və bu məsələ ən qısa vaxtda öz həllini tapmalıdır".

Beləliklə, sadə bir məntiqi nəticə: Ermənistan nə qədər təxribat və sərsəm bəyanatlar səsləndirsə də, reallıq budur: TƏCAVÜZKAR QUDUZLAŞMIŞ İŞĞALÇI ERMƏNİSTAN ZƏBT ETDİYİ TORPAQLARDAN ÇIXMALIDIR, BAŞQA YOL YOXDUR!

**RƏFİQƏ HÜSEYNOVA**

# Alınmaz qala necə alındı?

***Düz iyirmi səkkiz ildir ki, bu haqda danışılır, deyilir, yazılır. Amma çox mətləblər kimi bunun vazehinə hələ də yetə bilməmişik. Nədən? Doğrudanmı iyirmi səkkiz il ərzində, baş vermiş gözlənilməz və inanılmaz faciənin əsl səbəbini və ya səbəblərini ortaya çıxarmaq bu qədər müşküldür? Gerçəklərin üzə çıxmasına kim və ya kimlər niyə və necə mane ola bilirlər? Söhbət alınmaz qalamız Şuşanın düz iyirmi səkkiz il bundan əvvəl işğal olunmasının səbəblərindən gedir.***

Şuşa gerçəkdənmi düşmənin hərbi üstünlüyü nəticəsində təslim edildi, yoxsa?.. Baxın, əsas məsələ də həmin "yoxsa"nın axtarışında, həqiqətin üzünə dik baxılmasındadır ki, bu illər ərzində bundan bəziləri bilərəkdən, bəziləri əmin olmadığından qaçmaqdadırlar. Fəqət hər zaman bütün digər müəmmalarla bağlı olduğu kimi, Şuşanın süqutu ilə bağlı da həmişə bildiklərimi demişəm, bu gün də bütün indiyə kimi dediklərimi qısa icmal şəklində bir daha oxucularımın diqqətinə çatdırmağı özümə borc bilirəm. O zaman xalq hərakatında olan öncüllərin əksəriyyəti təstiq edər ki, 1990-cı il 20 Yanvar qırğınından sonra Azərbaycandan həbs edilərək Moskvanın məşhur Lefortovo həbsxanasına altı nəfər aparılmışdı. Digərlərindən fərqli olaraq onlardan biri - Rəhim Qazıyev azadlığa buraxıldıqdan sonra tamamilə qeyri-adi davranışları ilə diqqət çəkirdi. Bunu hərakatın yuxarı təbəqəsində olan o zamankı hərakatçıların çoxu hiss edirdi. Bu haqda dəfələrlə ayrı-ayrı hərakatçılarla xırda söhbətlərimiz də olmuşdu.

Haşiyə çıxaraq qeyd edim ki, konkret olaraq Zaqfqaziyadan bu həbsxanaya düşmüş Levon Ter-Petrosyan və Qamsaxurdiya sonradan müvafiq olaraq Ermənistanın və Gürcüstanın Prezidentləri olmuş, Moskvanın diktəsinə uyğun şəkildə idarəçilik etmişlər. Qətiyyən şübhə etmirəm ki, Azərbaycandan həbs edilmiş altı nəfər arasında məhz Rəhim Qazıyev Kremlin istəklərini yerinə yetirməyə dair razılığa gəlmiş eks-məhkum olmuşdur. Bunu həbsdən sonrakı bütün fəaliyyəti konkret ortaya qoyur.



*Təhmasib Novruzov*

Məsələn, o zaman Dağlıq Qarabağ probleminin ermənilərin istəklərinə uyğun həllinə ən kəskin şəkildə mane ola biləcək adamların - Ağdamda Eldar və Allahverdi Bağırovların, Yaqub Rzayevin, Şirin Mirzəyevin, Asif Məhərrəmovun(Fred Asifin), Şuşada Mikayıl Gözəlovun, Ramiz Qəmbərovun, Laçında Arif Paşayevin müxtəlif üsullarla zərərsizləşdirilməsi gərək idi ki, bu "zərərsizləşdirmə əməliyyatları"nın da hamısında Rəhim Qazıyevin dolayısı ilə deyil, birbaşa iştrakı hər kəsə məlumdur. Məhz Şuşanı süquta hazırlamaq üçün Mikayıl Gözəlovla Ramiz Qəmbərovun müəmmalı ölümləri, Arif Paşayevin isə düşməmnin Şuşaya hücuma hazırlaşdığı ərəfədə -1992-ci il aprelin 28-də alay komandirliyindən azad edilməsi danılmaz həqiqətdir ki, bunların hamısında birbaşa Rəhim Qazıyevin iştrakını həmin dövrdə ön cəbhədə olan hər kəs bilir.

Ağdamdan ola biləcək həmlələri zəiflətmək üçün isə sadəcə Eldar Bağırovun aradan götürülməsi ssenarisini yerinə yetirmədi, həm də rayondakı döyüşkən qüvvələr arasında nifaq salaraq Ağdamın könüllü döyüşçü qüvvələrini parçalamağa nail oldu. Mayın 2-də, ermənilərlə azərbaycanlı əsirləri dəyişdirən zaman erməni tərəfdən nümayəndə, rəhmətlik Allahverdi Bağırovun keçmiş futbolçu tanışı Vitalik adlı erməni mayın 8-də Şuşanı alıb, 9-da orda qələbə paradı keçirəcəklərini demişdi. Həmin məlumatı elə mayın 2-də həm Prezident Aparatına, həm Milli Təhlükəsizlik Nazirliyinə ötürdük. Rəhim Qazıyevə isə şəxsən zəng vurub telefonla dedim. Əsəbi şəkildə "Sən allah boş-boş şeylərlə başımızı qatmayın, qoyun işimizi görək" deyib telefonu qapatdı. Şuşaya hücumun reallaşdığı məlum olduqdan sonra mayın 10-a kimi müdafiə naziri Rəhim Qazıyevi kimsə tapa bilmədi.

Sonradan məlum oldu ki, dostu "Pa...şa" ilə - Rusiyanın Müdafiə Naziri Pavel Qraçovla görüşmək üçün Alma-Ataya gedibmiş(?). Beləcə, tamamilə müdafiəsizləşdirilən şəhər yerli könüllü döyüşçülərin və öz qeyrətinə sığınaraq şəhəri təhvil verməki istəməyən digər könüllülərin fədakarlıqlarına baxmayaraq, düşmən əlinə keçdi. Əlbəttə, Şuşanın işğalı ilə bağlı digər müəmmalı nüanslar da var ki, onlara aydınlıq gətirilməsi üçün fundamental araşdırmaların aparılmasına, dəlillərin üzə çıxarılmasına ehtiyac var. Həmin digər müəmmalar da Şuşanın düşmən əlinə keçməsinə şərait yaradan amillərdir.

Lakin o dövrdə Müdafiə Naziri olan bir adamın təhlükəli düşmən əməliyyatı barədə xəbəri ola-ola ölkəni tərk etməsi (Nəzərə alaq ki, ölkənin Prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov da əvvəlcədən planlaşdırılmış qrafikə uyğun olaraq həmin günlər İranda səfərdə idi!), nazirliyin faktiki donmuş vəziyyətə gətirilməsi, hesab edirəm ki, bu işğalın ən başlıca səbəbi idi və bunun xəyanətdən başqa adı yoxdur. Bu yerdə bir məqam da xüsusi diqqət çəkir. AXC dövründə idarə Heyətinin üzvləri olmuş Rəhim Qazıyevlə Leyla Yunus bir-biri ilə kəskin və barışmaz rəqabətdə idilər.

Rəhim Qazıyevlə söhbətlərimizdə dəfələrlə Leylanın ermənilərlə qohumluğu məsələsindən danışmışıq və hər dəfə də məhz Rəhim Qazıyev Leyladan ehtiyatlı olmağı tövsiyə edərdi. Ancaq Rəhim Qazıyev Müdafiə Nazziri təyin edildikdən az sonra LeylaYunusu Nazirliyin Mətbuat Xidmətinə rəhbər təyin etdi. Bu, kimin sifarişi idi, deyə bilmərəm. Təkcə onu deyə bilərəm ki, sonrakı dönəmlərdə həm əsir götürülmüş, həm də müxtəlif danışıqlar zamanı görüşdüyümüz ermənilər dəfələrlə demişdilər ki, sizin nazirlikdə hazırlanan bütün planlar iki saat sonra Stepanakertdə (Xankənddə)bizim əlimizdə olur. Bu faktı da Rəhim Qazıyevə şəxsən demişdim və heç bir nəticəsi olmamışdı. Bu qədər xəyanətlər burulğanında isə Şuşanın qorunması mümkün ola bilməzdi və olmadı!..

## "Yelo Bank" ASC-nin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib



***Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflıq və maliyyə intizamının təmin edilməsi, həyata keçirilən iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən qanunla ona həvalə olunan səlahiyyətləri çərçivəsində daim diqqət mərkəzində saxlanılmaqla aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı ardıcıl mübarizə tədbirləri davam etdirilir.***

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi "Yelo Bank" Açıq Səhmdar Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş məlumatlar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində bankın 12 saylı filialının direktoru Şükür Həsənovun filialın xəzinədarı Babək İbrahimli ilə birgə vəzifə səlahiyyətlərindən sui-istifadə edərək özü və ya üçüncü şəxs üçün qanunsuz olaraq maddi və sair nemətlər əldə etmək məqsədilə 2017-ci ilin yanvar ayından etibarən vətəndaşların razılığı olmadan qanunsuz olaraq pul vəsaitlərinin mübadiləsini, o cümlədən 19 fiziki şəxsin xəbəri olmadan onların adlarına əməliyyatlar apararaq ümumilikdə 190 min ABŞ dolları məbləğində qanunsuz valyuta alışı əməliyyatlarını həyata keçirmələrinə şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.



## Tacsız virus...

RƏFİQƏ

***Doğrudur, oxucularımız bu başlığı oxuyan kimi anlayacaqlar ki, söhbət AXCP sədri Əli Kərimlidən gedir. Əli Kərimli virusdur, bəli, sadəcə tacsız virus. Və 30 ildir o, insanları hava-damcı yolu ilə deyil, internet üzərindən yoluxdurur. İlkin əlaməti qaşınmadır...Elə hər dəfə ölkənin uğurlarınnı sayı artdıqca bu virus Əli Kərimli və onun ətrafınlakıları da qaşınma tutur. Bəli, bu gün də qaşınma tutub, Əli Kərimlini. Səbəb isə, ölkəmizdə dövlət başçımızın təşəbbüsü ilə Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinin bir araya gətirərək, COVİD-19 pandemiyasına qarşı mübarizədə həmrəylik nümayiş etdirməsidir. Əli Kərimlini ən çox qaşındıran isə, Azərbaycan Prezidentinin bu addımını iştirak edən 40-dan çox dövlətin üzvlərinin dəstəkləməsidir. Bu da əlbəttə ki, Azərbaycan Prezidentinin təşəbbüsünə verilən növbəti qlobal dəstək, dövlət başçısının çətin məqamlarda verdiyi çevik və qətiyyətli qərarlarıdır ki, Azərbaycanı dünyada fərqləndirir.***

Ancaq sonu görünən qaranlıq yolun yolçusu, müxalifətin qara yarası Əli Kərimli ri də müxalifətin üz qarası və satıla-satıla hər cürə alçaqlığı qəbul edərək yenə də sosial şəbəkələrdən "çıxış yolu-mitinq, mitinq" deməklə bütün fəaliyyəti boyu Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaq məqsədi güddüyünü sübut edir. O, hətta regionun ən güclü dövləti olan Azərbaycanı zəif Ermənistan qarşısında gücsüz göstərməyə çalışıb. Məqsəd tamamilə bəllidir: Azərbaycan cəmiyyəti və ordusuna inamsızlıq aşılamaq və qüdrətli ordunun gücünü xalqın nəzərində aşağılamaq! Ancaq bir şeyi unutmaq olmaz ki, belə fürsətbazların cəzasını tarix bir gün mütləq verəcək.

Bu o Əli Kərimlidir ki, illər boyu təkrarladığı yalanlarına indi sanki koronavirus çalarları əlavə edib. Və onlar əvvəllər də dəfələrlə müxtəlif formalarda və məqamlarda Azərbaycan xalqına qarşı xəyanət sayıla biləcək əməlləri ilə haqlı olaraq lənətlənmiş "beşinci kolon" adını qazanıblar.

Bəli, Əli Kərimli kimi siyasi virusların hərəkətləri təkcə xəyanət deyil, həm də cinayyətdir. Çünki onların təbliğatı hökumətin qabaqlayıcı tədbirlərinə insanlarda inamsızlıq yaratmağa yönəldiyindən birbaşa əhalinin sağlamlığının təhlükə altına atılması mahiyyəti daşıyır. Ancaq bütün bunlara baxmayaraq, rəzil yol seçən siyasi virus - "beşinci kolon" nümayəndələrinə inanan yoxdur. Çünki erməni lobbisinin maliyyəsi əsasında "fəaliyyət" göstərən bu antimilli ünsürlərin istəyi Azərbaycanda vəziyyətin gərginləşməsi, ölkəmizin xaos və anarxiya meydanına çevrilməsidir. Ona görə də onlar ölkədə koronavirus infeksiyasına yoluxanların və ölənlərin sayının artmasını, Azərbaycanın dərin sosial-iqtisadi problemlərlə üzləşməsini istəyirlər ki, bu məsələlərdən istifadə edərək Ermənistan mənafeyinə uyğun, dövlətimizin maraqlarına zidd təbliğat kampaniyası apara, vətəndaşla dövlət arasında etimadsızlıq mühiti yarada bilsinlər. Bu isə birmənalı olaraq Vətənə, xalqa və dövlətə xəyanətin bariz nümunəsi - əyani ifadəsidir. Və ən böyük gerçəyi yalan və hiylə üzərində formalaşan Əli Kərimli bu gerçəkləri qorumaq üçün əl atmadığı variant, üz tutmadığı yol yoxdur. Hətta el arasında deyildiyi kimi "ən axırıncı yoldan" da istifadə etməkdən belə çəkinmir. Lakin bu gedişatla, AXCP sədri anidən özünü "yandıra" bilər...

Müasir Müsavat partiyasınnı sədri Hafiz Hacıyevin sözlərinə qüvvət: "Tacsız virus olan Əli Kərimli kimi koronavirusdan betər mənəviyyatsızlar qırılsa yaxşıdır".

# Azərbaycanda milli ruhun təzahürü

***Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələr, bədii ədəbiyyat, milli fəlsəfi fikir böyük rol oynayır. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli- mənəvi dəyərlərin qorunmasınaxidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da milli ideologiya da eyni bir təməl üzərində - milli fəlsəfi fikir zəminində formalaşır.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bir millət üçün canlı tarix harada qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırı-lan- da, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampluada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə həqiqi böyük ziyalılar estafeti öz əllərinə alır və milli ruhu öz şəxsi həyatı bahasına, diri- diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadaraq və bir əmanət kimi yeni nəsillərə ötürürlər. Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasım yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə vaxtında birləşməyəndə bütün ağırlıq qələmin, yaradıcı ziyalıların üzərinə düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə dövlətlərarası dövrdə kəsilməzliyi milli-mənəvi körpülər təmin etməli olur.

Müstəqillik və milli dövlətçilik ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma isə başqa bır subyektin deyil, xalqın, millətin oz maraqları istiqamətində yönəldilə bilsin, ümummilli ahəng üstündə köklənsin. Yəni bütün daxili potensial; təbii sərvətlərdən tutmuş intellektual gücə, mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və elə istiqamətləndirilməlidir ki, hər bir vətəndaş ümummilli tərəqqi kontekstində öz şəxsi maraqlarını da realizə edə bilsin.

Lakin kütləvi siyasiləşmə və ifrat siyasi qarşıdurmalar təbii ki. qüvvələrin vahid amal uğrunda səfərbər edilməsinə, ümummilli tərəqqiyə xidmət etmir. Müstəqillik əldə etdikdən sonra daxili enerjinin quruculuq işlərinə deyil, başqa səmtə yönəldilməsi, görünür, kimlərəsə lazım imiş. Qondarma Dağlıq Qarabağ problemi də bu siyasiləşməni gücləndirmək və azadlığa çıxmış xalqların milli tərəqqisinə mane olmaq üçün törədilən məqsədyönlü aksiyalardan biri idi. Lakin biz hələ də böyük dövlətlərin coğrafi-strateji planlarından doğan siyasi burulğandan çıxa bilmirik.

Bax, belə bir şəraitdə siyasi təbəddülatların fövqünə yüksəlməyə, fəaliyyətlərin ümummilli tərəqqi naminə yönəlməsinə böyük ehtiyac vardır. Nə yaxşı ki, hələ sovet dövründə də kommunist ideologiyasının yaratdığı labirintlərdən məharətlə keçərək, milli mədəniyyətin tərəqqisi, xalqın maarifləndirilməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən ziyalılarımız bu gün də cari problemlərin cazibə dairəsinə düşmədən, heç bir konyukturaya uymadan bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə ümummilli tərəqqiyə xidmət edirlər. Bu gün siyasiləşmiş cəmiyyət və qütbləşmiş təfəkkür öz ehtiyaclarına uyğun yeni ədəbiyyat tələb etdiyi üçün klassik ədəbiyyatın və klasik mədəni-mənəvi dəyərlərin ön plana çəkilməsi heç də müqavimətsiz qarşılanmır. Lakin, bizcə, siyasiləşmiş təfəkkürün tələblərinə uyğun yeni ədəbiyyat axtarışına çıxmaqdansa, siyasi düşüncənin özünü ümumbəşəri və milli dəyərlərin prioritetliyi kontekstinə yönəltmək cəhdləri daha əhəmiyyətlidir.

Etnik-milli təfəkkürdən milli dövlətçilik şüuruna gedən yol milli və ümumbəşərinin sintezindən keçir. "Milli" anlayışı iki fərqli məzmun yükünə malikdir. Birincisi, hər bir millət üçün spesifik olan, onu fərqləndirən xüsusiyyətləri, ikincisi, fərqli cəhətlərlə ümumi cəhətlərin vəhdətini ehtiva edir.

İnsan müəyyən bir millətə mənsub olmazdan əvvəl insandır. Və milliyyətindən asılı olmadan bütün insanlar üçün ümumi, zəruri olan cəhətlər vardır. "Etnik-milli" anlamı müxtəlif qrupların insanlarını fərqləndirən cəhətləri əhatə etdiyinə görə məzmunca kasıbdır, solğundur. Sözün geniş mənasında "milli" anlamı isə hər bir insana məxsus zəruri şərtləri də əhatə etdiyindən, zəngin və daha tutumludur.

İnsanı səciyyələndirən keyfiyyətlərdən çoxu, onun maddi ehtiyacları, intellekti, bilik və əməli vərdişləri ümumbəşəri səciyyə daşıyır. Əsrlər boyu əvvəlki nəsillərin fəaliyyəti ilə yaranmış elm və texnologiya, maddi-texniki sərvətlər bütün insanlar üçün ünvanlanmışdır. Lakin bu və ya digər millətə mənsub olan adamlar müəyyən dildə danışır, müəyyən adət-ənənələri qoruyub saxlayırlar. Bunlar etnik-milli xüsusiyyətlərə aiddir. Milli dildən fərqli olaraq riyaziyyatın dili, kompüterin dili, texnikanın dili qlobal səciyyə daşıyır. Daha doğrusu, bu dilləri bilən insanlar da millətlər kimi qruplaşıb öz aralarında ünsiyyətə girirlər.

Bu baxımdan, biz artıq elə bir dövrə qədəm qoymuşuq ki, yeni ictimai birlik normaları yaranır və onlar hətta "etik" birliklərə nisbətən daha dayanıqlı ola bilərlər. Xüsusən, qloballaşma şəraitində internet və s.-nin açdığı məkan məhdudiyyətindən azad olan belə yeni birliklərin formalaşması və bəşəriyyətin elə bil ki, çalxalanıb yeni strukturlar kəsb etməsi olduqca əlamətdar proseslərdir və bunlara biganə qalmaq olmaz.



Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü,xalqımızın milli ruhunun təzahürünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar, Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə beynəlxalq iqtisadi layihələrdən kənarda qalır. Dövlət başçımızın Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban verib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmişə bəyan edir ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarmaqdan asılıdır. "Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşıdaş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın". Prezident İlham Əliyev bu sözləri ilə bir daha təsdiqləyir ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq".

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent**

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 may

Son səhifə


## "Beşiktaş"dan ayrıldı, "Liverpul" məşqə buraxmır...



***"Liverpul" "Beşiktaş"la müqaviləni təktərəfli ləğv edən qapıçısı Loris Kariusu məşqlərə buraxmayacaq. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, İngiltərə klubu 26 yaşlı qolkiperə istirahət verməyə hazırlaşır. Daha sonra isə klub onu satacaq. "Liverpul"un məşqçi heyətinin ona şans verməyi düşünmədiyi bildirilib. Qeyd edək ki, L.Kariusun Premyer Liqa təmsilçisi ilə müqaviləsi 2022-ci ilin yayında başa çatır.***

## Koronavirus uşaqlarda nadir xəstəlik ortaya çıxardı: 15 azyaşlı...



***ABŞ-ın Nyu-York şəhərində 15 uşaq eyni şikayətlərlə xəstəxanaya yerləşdirilib. Uşaqların yeni tip koronavirusla əlaqəli olduğundan şübhə edilən, nadir rast gəlinən xəstəliyə tutulduğu bildirilir. Kavasakiyə bənzər xüsusiyyətlər daşıyan xəstəlik Avropa və ABŞ başda olmaqla, bir çox ölkədə aşkarlanıb.***

Nyu-York Səhiyyə Departamentinin yazılı açıqlamasında 15 uşağın Kavasaki sindromu diaqnozu ilə müalicəyə cəlb edildiyi bildirilib. Bu azyaşlılardan 4-nün COVID-19 testi pozitiv çıxıb, 6-da isə virusla əlaqəli antikor aşkarlanıb. Onlardan 5-i süni tənəffüs aparatlarına qoşulub.

Açıqlamada nadir rast gəlinən, ölümcül ola bilən Kavasaki xəstəliyinin yüksək qızdırma, əl və ayaqların üşüməsi, göz qızarıqlığı, limfaların şişkinliyi, boğazda iltihablanma kimi simptomlar ortaya çıxardığı, xüsusilə 5 yaşdan kiçik uşaqlarda daha effektiv olduğu ifadə edilib.

## Quranda adı keçən məşhur quş AZƏRBAYCANDA!

***Göyçayda nadir hallarda görünən Əbabil quşuna rast gəlinib. Bu quş rayon sakini Səid İsmayılovun həyətinə düşüb. Ev sahibi həyətə düşən quşu ilk dəfə gördüyü üçün tanımadığını bildirib. Araşdırmalar zamanı bu canlının Əbabil quşu olduğu məlum olub.***

Səid İsmayılov həyətində başqa növ quşlar bəslədiyi üçün tapdığı Əbabil quşuna da böyük diqqətlə yanaşır. Ona qidalanmaq üçün lazım olan yem və ət verir.

Səid İsmayılov bu quşu bir neçə gün saxladıqdan sonra onu azad edəcəyini bildirib.

Qeyd edək ki, Əbabil quşları barədə Qurani-Kərimin 5 ayədən ibarət olan "Fil" surəsində, yəni 105-ci surədə söhbət açılır. Yəmən hökmdarı Əbrəhə döyüş filləri ilə birlikdə Kəbəni dağıtmaq üçün Məkkə üzərinə hücum edəndə Allahın əmri ilə bir dəstə Əbabil quşu Qırmızı dəniz tərəfdən uçub gəlir. Onların hər biri dimdiyində və iki caynağında bişmiş gildən düzəlmiş xırda daş tutur. Quşların atdıqları daşlar döyüşçülərin bədənində yara əmələ gətirərək tezliklə onların ölümünə səbəb olur. Xatırladaq ki, koronavirusa görə bağlanan Kəbə üzərində az öncə Əbabil quşları görünmüşdü./axar.az



## Mustafa Sandal lüks villasını 7 milyon manata satır



***Keçmiş həyat yoldaşı, serbiyalı Emina Yahoviçlə yenidən evlənəcəyi ilə bağlı iddiaları yalanlayan Türkiyənin məşhur müğənnisi Mustafa Sandal dəbdəbəli villasını satışa çıxarıb. 650 kvadratmetrlik dörd mərtəbəli villasını müğənni 4 milyon 131 min dollara (7 milyon 23 min manat - red.) satmaq qərarına gəlib.***

Keçmiş cütlüyün əldə etdiyi razılığa əsasən, Ulus Savoydan alacaqları iki ev oğlanları Yavuz və Yamanın olacaq. Qeyd edək ki, 2008-ci ildəEmina Yahoviçlə ailə quran Mustafa Sandal 2018-ci ildə boşanıb.

## İmişlidə oğurluq edən keçmiş məhkumlar saxlanılıb



Bir qrup İmişli rayon sakini cari ilin fevralında rayon polis şöbəsinə müraciət edərək onlara məxsus evlərdən və avtomobildən oğurluq edilməsi barədə məlumat verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar polis əməkdaşları tərəfindən müvafiq tədbirlər görülüb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən İmişli rayon sakini, əvvəllər məhkum edilmiş Samit Bəyalıyev və Lənkəran rayon sakini, əvvəllər məhkum edilmiş Sakit Cəfərov saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər rayon ərazisindəki iki evdən və bir avtomobildən qızıl zinət əşyaları və nəğd pul oğurlamaqla vətəndaşlara ümumilikdə 8 min manatdan çox ziyan vurublar. Dindirilmə zamanı hər iki şəxs törətdiyi cinayət əməlini etiraf edib. Faktlarla bağlı İmişli Rayon Polis Şöbəsində cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

## "Nou Kamp"ın adı dəyişdiriləcək?




"Barselona" "Nou Kamp" stadionunun adını 25 illik satışa çıxara bilər. ESPN-nin məlumatında deyilir ki, bu barədə Kataloniya klubunun vitse-prezidenti Jordi Kardoner məlumat verib. Bundan əvvəl klubun prezidenti Xosep Bartomeu özünün rəsmi Tvitter səhifəsində "Nou Kamp" stadionunun adını bir mövsümlük (2021/22) satışa çıxardıqlarını bildirmişdi. J.Kardoner isə bu müddətin 25 il ola biləcəyini açıqlayıb: "Razılaşmaya 25 il əlavə etmək olar. Birinci ildəki gəlir koronavirusla mübarizə üçün ayrıla, qalan illər klubun ehtiyacları üçün xərclənə bilər".


***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**